RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 252 (8845) BAZAR 21 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# YENİ AZƏRBAYCAN PARTİYASI - müstəqil, müasir və bütöv Azərbaycan reallığı

Tarixi təcrübə hər bir xalqın siyasi taleyində dönüş nöqtələri hesab olunan müstəsna hadisə və proseslərin olduğunu təsdiqləyir. Zəngin milli-mənəvi dəyərlərə və dövlətçilik ənənələrinə malik olan, bir əsrdə iki dəfə müstəqillik qazanmış, bəşər sivilizasiyasına mühüm töhfələr vermiş Azərbaycan xalqı da bu baxımdan istisna deyil.

Adını dünya tarixinə güclü, nüfuzlu və qalib ölkə kimi yazdırmış müasir, müstəqil Azərbaycan bugünkü inkişaf, intibah, yüksəliş və tərəqqi mərhələsinə asanlıqla çatmayıb. 1991-ci ildə bərpa edilmiş dövlət müstəqilliyinin ilk illərinin ictimai-siyasi mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli məhz lider amili, onun fenomenal fəaliyyəti, qətiyyətli və uğurlu siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur. Bu, heç şübhəsiz, öz tarixi köklərinə bağlı olan, istiqlal - müstəqillik idealını milli və siyasi dəyər kimi rəhbər tutan, bu yolda güclü əzm, iradə göstərən və sarsılmaz mübarizə nümunəsi yaradan bir xalqın üstünlüyü və xoşbəxtliyidir. Çünki zamandan, məkandan, dövrdən və şəraitdən asılı olmayaraq, taleyüklü anlarda siyasi məsuliyyəti öz üzərinə götürən lideri olmayan xalqların hansı acı ssenarilərin qurbanına çevrildiklərinin, necə böyük faciə və fəlakətlərlə üzləşdiklərinin şahidi olmuşuq. 1990-cı ilin əvvəlində eyni situasiya və problemlə qarşılaşan mübariz Azərbaycan xalqı, qeyd etdiyimiz kimi, lider fenomeni, xalq ilə liderin unikal və mükəmməl vəhdəti sayəsində tənəzzüldən qurtularaq tərəqqi yoluna çıxmağı, böyük Zəfərə doğru irəliləməyi və əsas strateji hədəflərinə çatmağı, nəhayət, tarixinin ən böyük Qələbəsinə müvəffəq olmağı bacarmışdır. Ümumiyyətlə, Azərbaycan xalqı istər XX əsrin sonlarında, istərsə də XXI əsrin əvvəllərində öz müdrik liderləri Heydər Əliyevin və İlham Əliyevin milli vətənpərvərlik ruhu, qətiyyəti və həm milli maraqlara, həm də ümumbəşəri dəyərlərə əsaslanan siyasəti sayəsində dövlətimizin yüksəlişinin, üçrəngli bayrağımızın ən yüksək zirvələrdə əzmlə və fəxarətlə dalğalanmasının qürurunu yaşamışdır.

## Ümumxalq partiyasının yaradılması - müstəqil dövlətçiliyimizin dönüş nöqtəsi

Həmin dövrün reallıqları fonunda müstəsna tarixi-siyasi əhəmiyyətə malik və haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən hesab edilən hadisələrdən biri də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasıdır. Siyasətçilərin, siyasi analitik - ekspertlərin, ziyalıların, ümumiyyətlə, cəmiyyətin müxtəlif təbəqələrindən olan insanların dilindən tez-tez belə bir ifadə eşidirik: "YAP ictimai tələb əsasında və siyasi zərurətdən yaranmış partiyadır". Əlbəttə, bu, ictimai-siyasi və tarixi reallığı əks etdirən, tamamilə doğru və dəqiq yanaşmadır. İnkaredilməz həqiqətdir ki, müstəqilliyin ilk illərində, o cümlədən Yeni Azərbaycan Partiyasının yaradılması ərəfəsində Azərbaycanda mövcud hakimiyyətin milli maraqlara zidd, yarıtmaz, uğursuz siyasəti və xəyanətkar mövqeyi nəticəsində ölkəmizdə ictimai-siyasi böhran, iqtisadi tənəzzül hökm sürürdü, respublikamız regional və beynəlxalq səviyyədə, demək olar ki, geosiyasi təcrid vəziyyətində idi. Ölkə daxilində siyasi ziddiyyətlərin dərinləşməsi, vətəndaş qarşıdurmasına yol açan gərginliyin artması, Azərbaycana beynəlxalq təzyiqlərin güclənməsi, Ermənistanın ölkəmizə təcavüzünün genişlənməsi - torpaqlarımızın işğal edilməsi, digər neqativ hadisə və proseslər Azərbaycanın formal xarakter daşıyan müstəqilliyinin itirilməsi təhlükəsini aktuallaşdırmışdı. Belə bir şəraitdə yalnız qətiyyətli, təcrübəli siyasi lider uğurlu strateji kurs həyata keçirərək və milli həmrəyliyi təmin edərək Azərbaycanın xilasına nail ola bilərdi. İnam, etibar və etimad ünvanı isə bəlli idi. Azərbaycan xalqı ümidini məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. 1992-ci il oktyabrın 16-da bir qrup Azərbaycan ziyalısının Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi bunun bariz nümunəsi - əyani ifadəsi idi. 91 nəfər ziyalının imzaladığı müraciətdə "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir",- deyə vurğulanmışdı. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur.

Ardı 3-cü səh.

# Vətən borcunu qaytarır

### Şəhid ailələri və qazilər dövlətin hər cür dəstəyi ilə əhatə olunublar

44 günlük Vətən müharibəsində zəfər çalan Azərbaycan əsgəri bu gün hamımızın başının tacı və qürur mənbəyidir. Onun göstərdiyi misilsiz qəhrəmanlıq nümunəsi, cəsurluğu və ölümün gözünün içinə dik baxaraq düşmən üstünə şığıması Silahlı Qüvvələrimizi dünyanın ən döyüşkən orduları səviyyəsinə qaldırdı.

Ali Baş Komandan İlham Əliyevin qısa müddət ərzində ordu quruculuğunda apardığı dərin və geniş islahatlar, yeni qoşun növlərinin yaradılması, tamamilə yeni müharibə taktika və strategiyalarının işlənilib tətbiq edilməsi gücümüzü birə yüz artırdı. 44 günlük müharibədə bütün əməliyyatlara fərdi yanaşmaların və düşmənin ağlına gəlməyən hərbi innovasiyaların tətbiqi bütün dünyada qalib Azərbaycan Ordusuna qeyri-adi şöhrət gətirdi. Hətta düşmənin özü belə gördüklərindən vahiməyə gəldiyini etiraf etməyə məcbur oldu.

Bax: səh. 5

# İlham Əliyev Qarabağın yüksəlişinin baş memarıdır

### Zəngəzur dəhlizinin açılması isə Azərbaycanın nüfuzunu, siyasi və iqtisadi çəkisini daha da artıracaq

"Biz Qarabağı dirçəldəcəyik, onu dünyanın ən inkişaf etmiş regionlarından birinə, Şərqi Zəngəzuru isə cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur".



Ardı 2-ci səh.

# Beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləyir

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın üçüncü komitəsində Qoşulmama Hərəkatının (QH) sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə noyabrın 18-də BMT-yə üzv dövlətlər tərəfindən qəbul edilib.




Qətnamədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca amillərdən olduğu diqqətə çatdırılır. Koronavirusa qarşı mübarizədə çoxtərəfliliyin, həmçinin beynəlxalq həmrəylik və əməkdaşlığın əhəmiyyəti xüsusi vurğulanır.

Ardı 7-ci səh.

# Sosial güvənlik, iqtisadi tərəqqi və milli təhlükəsizlik büdcəsi

2022-ci ilin dövlət büdcəsi layihəsi 26,8 milyard manat gəlir və 29,9 milyard manat xərc ilə təqdim olunmuşdur. Mütəxəssislər bunun ölkəmizin cari və strateji inkişaf hədəflərinə, iqtisadi siyasətinə və qarşıda duran çağırışları dəf etmək iqtidarında olacağı qənaətindədirlər. Xərclərin əsas istiqamətləri bunlardır: ümumi dövlət xidmətləri, qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti, müdafiə və milli təhlükəsizlik, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, kənd təsərrüfatı, iqtisadi fəaliyyət.

Ölkəmiz yeni ilə yeni reallıqlarla daxil olur. Bu baxımdan 2022-ci ilin dövlət büdcəsi layihəsində işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinə xüsusi əhəmiyyət verilməsi önəmlidir və təqdirəlayiqdir.

Bax: səh. 5

## D.H.Rəhimova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Hidayət oğlu Rəhimova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2021-ci il*

# Prezident İlham Əliyev Brüsseldə Ermənistanın baş naziri ilə görüşəcək

Azərbaycan tərəfi hər zaman siyasi dialoqa açıqdır və bu kimi təmasları müsbət qarşılayır. Bu xüsusda Avropa İttifaqı (Aİ) Şurasının prezidentinin Brüssel Zirvəsi çərçivəsində Aİ-nin vasitəçiliyi ilə iki ölkə liderinin görüşünün təşkili təklifinə Azərbaycan tərəfindən razılıq verilib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Aİ Şurasının prezidenti tərəfindən bəyan edilmiş, Şərq Tərəfdaşlığı ölkələrinin qarşıdan gələn Zirvə görüşü çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin görüşünün keçirilməsi təklifi ilə bağlı suala cavabında deyib.

Onun sözlərinə görə, Aİ Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə noyabrın 19-da telefon danışıqları baş tutub. Aİ Şurasının prezidenti bu il dekabrın 15-də Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığının Zirvə Görüşü çərçivəsində hər iki ölkə liderinin görüşünün təşkil edilməsi təklifi ilə çıxış edib.

"Postmünaqişə dövrünün reallıqları müstəvisində Azərbaycanın mövqeyi dəfələrlə dövlətimizin başçısı tərəfindən, o cümlədən beynəlxalq platformalarda səsləndirilib. Bu xüsusda Brüssel Zirvəsinin və bu çərçivədə keçirilməsi nəzərdə tutulan görüşün əlavə imkanlar yaradacağını hesab edirik", - deyə Leyla Abdullayeva vurğulayıb.

# YAP-ın təsis edilməsinin 29-cu ildönümü münasibətilə "Yaşıl marafon" kampaniyası





Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 29-cu ildönümü münasibətilə noyabrın 20-də IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə "Yaşıl marafon" kampaniyası keçirilib.



AZƏRTAC xəbər verir ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclisin deputatları və partiyanın fəalları marafonda iştirak ediblər.

Kampaniya çərçivəsində YAP üzvləri ETSN-in nümayəndələri ilə birgə Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində Abşeron yarımadasının iqliminə uyğun 1000-dən artıq müxtəlif növ ağac əkiblər.

Qeyd edək ki, "Yaşıl marafon" kampaniyası ölkəmizdə həyata keçirilən yaşıllaşdırma aksiyasına növbəti bir töhfədir. Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, ekoloji vəziyyətin qorunmasına, yaşıllıqların və parkların salınmasına xüsusi diqqət yetirib. Hazırda bu nəcib siyasət Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. YAP üzvləri də Ulu Öndərimiz tərəfindən qoyulan bu ənənəni layiqincə davam etdirirlər.

# Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib

Noyabrın 20-də müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Əvvəlcə Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatın qarşısını alarkən şəhid olan hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Müşavirədə dövlət sərhədi və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə mövcud vəziyyət, xüsusilə dövlət sərhədinin Kəlbəcər və Laçın sahələrində qarşı tərəfin təxribatları nəticəsində baş verən döyüşlər təhlil edilib. Qeyd olunub ki, son günlər dövlət sərhədində gedən döyüş əməliyyatları ilə bağlı bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən qeyri-rəsmi foto və video materialların paylaşılması Müdafiə Nazirliyinin rəhbərliyinin ciddi narahatlığına səbəb olub. Azərbaycan Ordusunun komandanlığı tərəfindən həyata keçirilən tədbirlər nəticəsində məxfilik rejimini kobud şəkildə pozaraq bu kimi paylaşımları edən bir qrup hərbi qulluqçu müəyyən edilib. Həmin hərbi qulluqçuların ordu sıralarından tərxis edilməsi barədə qərar qəbul olunub. Onların törətdiyi əməllərə hüquqi qiymətin verilməsi üçün toplanılan materiallar hüquq-mühafizə orqanlarına göndərilib.

Nazir dövlət sərhədində xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib. Qış dövrü ilə əlaqədar bölmələrin maddi-texniki və mühəndis təminatı, o cümlədən şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması və tibbi təminatının gücləndirilməsi barədə göstəriş verən nazir silah və hərbi texnikanın qış istismar rejiminə keçirilməsi üzrə görülən işlərin yekunlaşdırılmasını tapşırıb.

Müşavirədə dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraiti və mənəvi-psixoloji vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində aparılan işlər xüsusi vurğulanıb.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, şəxsi heyətin ayıq-sayıqlığının artırılması, təhlükəsizlik qaydalarına riayət edilməsi, həmçinin döyüş hazırlığı planlarının dəqiqləşdirilməsi barədə göstərişlər verib.

Azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun təkmilləşdirilməsi, eləcə də dağlıq ərazilərdəki yolların daim işlək vəziyyətdə saxlanılmasının vacibliyi vurğulanıb.

# Ağdam şəhərindəki meşə parkı ərazisində ağacəkmə aksiyası





Noyabrın 20-də Ağdam şəhərinin işğaldan azad edilməsinin birinci ildönümü münasibətilə ağacəkmə aksiyası keçirilib.

Prezidentin xüsusi nümayəndəliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən aksiyada şəhid ailələri də iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, aksiya zamanı Ağdam şəhərindəki meşə parkı ərazisində 1000 ədəd Eldar şamı ağacı əkilib. Həmçinin Ağdam rayonundan olan Vətən müharibəsinin 53 şəhidinin hərəsinin adına bir ağac əkilərək, adları əbədiləşdirilib.

Ağacəkmə aksiyasında iştirak edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev jurnalistlərə açıqlamasında bildirib ki, işğaldan azad olunmuş torpaqlarımızda türk tərəfdaşlarla birlikdə müasir və böyük tinglik yaradılır. Bu cür tingliklər Qarabağ torpaqlarında yaşıllıqların bərpasına töhfə verəcək. Respublika üzrə böyük yaşıllaşdırma işlərinin aparıldığını vurğulayan nazir deyib: "Şadıq ki, bu gün Ağdamdayıq, burada gözəl park salırıq. Əminəm ki, bu yerlər tezliklə yaşıllaşacaq və təbiətə töhfə olacaq".

Aksiya iştirakçıları sonra Şəhidlər xiyabanına gedərək, Birinci Qarabağ müharibəsində həlak olmuş şəhidlərimizin məzarlarını ziyarət ediblər. Daha sonra Ağdam Cümə məscidinə və Şahbulaq qalasına baş çəkiblər.

Şahbulaq qalasında davam edən tədbir zamanı Ağdamın işğaldan azad olunmasının ildönümünə həsr edilən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov şəhidlərimizə Allahdan rəhmət diləyib, şəhid ailələrinə səbir diləyib. O, çıxışında doğma torpaqlarımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti və rəşadətli Azərbaycan Ordusunun qüdrəti sayəsində işğaldan azad olunduğunu bildirib, doğma yurdlarına qovuşan həmyerlilərimizi təbrik edib, xoş arzularını çatdırıb. Şəhid ailələrinin üzvləri göstərilən diqqət və qayğıya, şəhidlərin xatirələrinin yüksək tutulmasına və əbədiləşdirilməsinə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ağacəkmə aksiyası Prezident İlham Əliyevin ölkə üzrə başlatdığı 44 min ağacın əkilməsi kampaniyasının davamı kimi keçirilib.

# İlham Əliyev Qarabağın yüksəlişinin baş memarıdır

*Əvvəli 1-ci səh.*

Vətən müharibəsindəki şanlı Zəfərdən sonra işğaldan azad edilən torpaqlarımıza səfəri zamanı, eləcə də iştirak etdiyi beynəlxalq toplantılarda bu fikirləri qətiyyətlə söyləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev cəmi bir il ərzində gördyü işlərlə sözünə, əməlinə sadiq lider olduğunu bir daha isbatladı. Bu gün Qarabağın inkişafı, Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar, ümumilikdə Böyük qayıdış planının icrasına başlanması istiqamətində görülən işlər bir daha təsdiq edir ki, Qarabağı 44 günə düşməndən təmizləyən qüdrətli Sərkərdə indi onun yüksəlişinin baş memarı kimi xarüqələr yaradır.

### Qarabağda böyük tikinti bumu yaşanır

Qarabağ böyük tikinti meydanına çevrilib. Yol-nəqliyyat infrastrukturu, su və elektrik enerjisi stansiyaları, hava limanları, dəmir yolu, yaşayış evləri, müəssisə və sənaye zonaları, bir sözlə, Qarabağın dirçəlişi naminə bütün layihələr sürətlə icra olunur.

Düzdür, bu layihələr böyük vəsait tələb edir. Amma iqtisadi qüdrəti getdikcə güclənən Azərbaycan böyük işlərin həyata keçirilməsi prosesini heç kimdən yardım istəmədən öz hesabına reallaşdırır. 2022-ci ilin dövlət büdcəsində bu proseslərin həyata keçirilməsi məqsədi ilə 2,2 milyard manat vəsaitin ayrılması planlaşdırılıb.

Amma buna baxmayaraq Prezident müxtəlif modern layihələrin reallaşdırılması işində dost və qardaş ölkələrin investorlarına da müraciət edib. Bu müraciətə cavab olaraq dost ölkələrin böyük şirkətləri öz təkliflərini irəli sürüblər və hazırda Qarabağda yeni layihələrin icrasında Türkiyə, İtaliya, İsrail, Belarus və digər ölkələrin şirkətləri iştirak edirlər.

Prezidentin göstərişi ilə işğaldan azad edilən bütün şəhər və rayonların baş planları hazırlanıb. Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış yurd yerlərimiz ən müasir texnologiyalara əsaslanan layihələr üzrə bərpa olunur.

Təbii ki, Qarabağda tikinti proseslərinin reallaşdırılması üçün ən mühüm mərhələ ilk olaraq yol-nəqliyyat infrastrukturunun bəpası idi. Bu proses demək olar ki, çox sürətlə reallaşır. Təkcə İlham Əliyevin "Zəfər" yolu adlandırdığı 101 kilometrlik Füzuli-Şuşa yolunun 11 aya hazır olması bunu təsdiq edir.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda uzunluğu 700 kilometrə yaxın bir neçə yol infrastrukturu layihəsi icra olunur. Bunlar Əhmədbəyli-Füzuli Şuşa (81,6 km), Toğanalı-Kəlbəcər-İstisu (80,7 km), Kəlbəcər-Laçın (72,8 km), Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd (123 km), Talış-Tapqaraqoyunlu-Qaşaltı (22 km), Xudafərin-Qubadlı-Laçın (83 km), Şükürbəyli-Cəbrayıl-Hadrut (43 km), Füzuli-Hadrut (13 km), Bərdə-Ağdam (45 km) yollarıdır. Füzuli-Ağdam (64,8 km) avtomobil yolu isə hələlik təməli qoyulan sonuncu layihədir.

Yeni avtomobil yollarının çəkilməsi elektrik və su təchizatı ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzura qayıdışın əsas mərhələlərindən biridir və təsadüfi deyil ki, bu istiqamətlərdə bütün layihələr paralel şəkildə həyata keçirilir. Eyni zamanda bu yolların bir qismi Zəngəzur dəhlizinin tərkib hissəsini təşkil edəcək.

Pezidentin aprelin 26-da Zəngilanda təməlini qoyduğu ilk "ağıllı kənd" layihəsi 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. İlham Əliyevin ilk olaraq təsdiq etdiyi Ağdamın Baş Planına uyğun olaraq şəhərdə çox böyük işlər görülür. "Qarabağın hava qapısı" sayılan Füzuli Beynəlxalq Hava Limanı artıq istifadəyə verilib, Zəngilan Hava Limanının təməli qoyulub.

### Zəngəzur dəhlizi Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanı əlaqələndirəcəkdir

Oktyabrın 26-da Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təməli qoyulan Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi davam edir.

Əlbəttə ki, Zəngəzur dəhlizi Azərbaycan üçün yalnız siyasi əhəmiyyət kəsb etmir. Bu dəhliz, ilk növbədə, daxili iqtisadi proseslər baxımından yüksək əhəmiyyətə malikdir. Naxçıvanla birbaşa əlaqə imkanı ölkə daxilində iqtisadi inteqrasiyanı gücləndirəcək, bu bölgədə sənayeləşməni sürətləndirəcək. Digər tərəfdən isə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin sosial-iqtisadi inkişafına təkan verəcək. Dəhliz boyu infrastrukturun işləməsi əlavə iş yerlərinin açılması, bölgənin inkişafı deməkdir.

Zəngəzur dəhlizi təkcə Naxçıvanla Azərbaycanın qalan bölgələri arasında nəqliyyat imkanlarının açılması deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsidir.

Göründüyü kimi, postmüharibə dövrü, doğrudan da, yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır. Əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, Prezidentin söylədiyi kimi, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistanın maraqlarına cavab vermir. Digər qonşu ölkələrin də maraqlarına cavab verən bu proseslə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

Bir sözlə, İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyası əsasında Azərbaycan gələcək yüksəlişinin gündəliyini qəbul edib və indi bütün proseslər bu gündəlik əsasında davam etdirilir. Prezident də xüsusi olaraq qeyd edir ki, Azərbaycan həm müharibə dövründə, həm postmüharibə dövründə istədiyinə nail olub və bu gün də bütün sahələrin yüksəlişi üçün konseptual yanaşma mövcuddur. Düşünülmüş, ölçüb-biçilmiş addımlar atmaqla Azərbaycan daha böyük uğurlara doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ağdam rayonuna mediatur təşkil olunub



Müdafiə Nazirliyi kütləvi informasiya vasitələrinin nümayəndələri üçün Ağdam rayonuna mediatur təşkil edib.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, media nümayəndələri bu ərazilərdə dislokasiya olunan hərbi hissələrdə xidmət edən, həmçinin Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçulardan müsahibələr götürüb və çəkilişlər aparıblar.

Hərbi qulluqçular torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan döyüş əməliyyatlarından xatirələrini media nümayəndələri ilə bölüşüblər.

Mediatur çərçivəsində kütləvi informasiya vasitələrinin nümayəndələri, həmçinin şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də məişət şəraitinin təmin edilməsi məqsədilə Ağdam rayonu ərazisində müasir avadanlıqla təchiz olunmuş müxtəlif təyinatlı qurğulardan ibarət modul tipli hərbi hissələrdə yaradılan yataqxana, tibb məntəqəsi, yeməkxana, mətbəx, silah otağı və hamam-sanitar qovşağı ilə yaxından tanış olublar.

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

*Əvvəli 1-ci səh.*

Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər", - deyə Ulu Öndər diqqətə çatdırmışdı. Bu, Ümummilli Lider Heydər Əliyevin növbəti dəfə xalqın və dövlətin gələcəyi, dövlətçiliyimizin xilası naminə siyasi məsuliyyəti öz üzərinə götürməsi, yüksək vətənpərvərlik və milli təəssübkeşlik nümunəsi ortaya qoyması idi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransının keçirilməsi, Ulu Öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi xalqımızın gələcək taleyini, ölkəmizin perspektivini müəyyənləşdirən çox mühüm, əlamətdar hadisə oldu. Azərbaycan Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyev partiyanın keçdiyi tarixi yoldan danışarkən bu məqamlara toxunaraq deyib: "Partiyanın çox böyük tarixi var, partiya Ulu Öndər Heydər Əliyev tərəfindən çox çətin, ağır şəraitdə yaradılmışdır. Ondan sonra partiyanın bütün fəaliyyəti Azərbaycan xalqına xidmətdən ibarət olmuşdur. Bizim partiyamız müxalifətdə yaranmışdır. Yəni biz ilk fəaliyyətimizə müxalifət partiyası olaraq başlamışıq. Ancaq buna baxmayaraq, Azərbaycanın qarşısında duran bütün çətin vəzifələrin həlli işində bizim partiyamız çox fəal iştirak edib. Bu, bir daha onu göstərir ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyini möhkəmləndirən və Azərbaycan dövlətçiliyini ən uca tutan partiyadır".



# Yeni Azərbaycan Partiyası - müstəqil, müasir və bütöv Azərbaycan reallığı



## Xalq-Lider vəhdəti - yeni Azərbaycan quruculuğu

Güclü lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirdi və siyasi səhnədə yüksəlişə keçərək layiqli yer tutdu. Bunu mümkün edən bir çox strateji faktor var idi. Ən əsası o idi ki, Ümummilli Lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının fəaliyyət konsepsiyasını və prioritetlərini məhz dövrün çağırışlarına, reallıqlarına uyğun müəyyənləşdirmişdi, YAP, sözün əsl mənasında, Azərbaycanın dövlətçilik maraqlarının etibarlı və qəytiyyətli müdafiəçisinə çevrilmişdi. Digər tərəfdən, Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inamı, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil oldu. Partiyamız qısa müddət ərzində milli seçim - Azərbaycan xalqının iradəsi əsasında hakimiyyətə gələrək ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, yeni Azərbaycan quruculuğunun həyata keçirilməsini təmin etdi.

Hələ yarandığı vaxt öz məqsədyönlü, nümunəvi fəaliyyəti ilə müxalifətçiliyin sivil qaydalarını və normalarını müəyyənləşdirən Yeni Azərbaycan Partiyası yeni siyasi mədəniyyət nümunəsi ortaya qoydu. YAP nümayiş etdirdi ki, müxalifətçilik dövlətin maraqlarına zidd mövqe tutmaq üçün deyil, iqtidar partiyası kimi fəaliyyət göstərmək, hər şeydən əvvəl, məhz xalqa xidmət etmək, onun mənafeyini qorumaq prinsiplərinə əsaslanmalıdır. Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyəti, eyni zamanda dövlətin institusional sütunlarından olan siyasi sistemin təşəkkül tapması baxımından da əlamətdar idi. Çünki o zamana qədər Azərbaycanda sivil siyasi münasibətlərdən - siyasi qüvvələr arasında inkişafa xidmət edən sağlam rəqabətdən, milli məsələlərə rasional və konstruktiv yanaşmadan söhbət belə gedə bilməzdi. Yeni Azərbaycan Partiyası məhz bu ictimai-siyasi ənənələri yaratdı, Azərbaycanın gələcək demokratik inkişafının siyasi özülünü qoydu. Azərbaycan Respublikasının Prezidenti, YAP-ın Sədri İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizdə, əslində, siyasi sistemin yaradılması demək idi: "Çünki o vaxta qədər bizdə siyasi sistem mövcud deyildi. Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi. Biz bu ideyalara bu gün də sadiqik. Bütün siyasi mübarizələri sivil qaydalarla aparırıq və bütün siyasi məsələlərdə daim qələbə qazanırıq. Yeni Azərbaycan Partiyası və onun nümayəndələri bütün prezident, parlament və bələdiyyə seçkilərində böyük üstünlüklə qələbə qazanmışlar. Bu, partiyamızın ümummilli partiya olduğunu bir daha sübut edir".

## YAP-ın zəngin və şərəfli tarixi - müstəqil Azərbaycanın inkişaf salnaməsi

Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Çünki müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP ötən 29 il ərzində nümunəvi, zəngin və şərəfli inkişaf yolu keçmiş, siyasi ləyaqət etalonu yaratmışdır. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 760 mindən çox vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi də bu reallığın təsdiqidir. Azərbaycan Prezidenti, partiyamızın Sədri İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib".

Öz sıralarında Azərbaycan cəmiyyətinin demək olar ki, bütün təbəqələrindən olan, sağlam düşüncəli və möhkəm əqidəli insanları birləşdirən Yeni Azərbaycan Partiyasının fəaliyyətinin səmərəliliyini təmin edən mühüm strateji amillərdən biri partiyanın mütəmadi olaraq struktur və təşkilati nöqteyi-nəzərdən yenilənməsi, islahatlar çərçivəsində təkmilləşməsidir. Xüsusilə də partiyanın qurultaylarında qəbul edilən qərarlar YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amildir. Xüsusi vurğulamaq gərəkdir ki, cənab İlham Əliyevin 1999-cü ildə Yeni Azərbaycan Partiyası Sədrinin müavini, 2001-ci ildə Sədrin birinci müavini, 2005-ci ildə isə Sədr seçilməsindən sonra partiyanın fəaliyyətində yeni mərhələ başlanmışdır. Yeri gəlmişkən, Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər", - deyə bildirmişdi. Zaman Ümummilli Liderin inamının, xalqın böyük etimadının özünü tam doğrultmasına şahidlik etdi. Cənab İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmiz və partiyamız yeni tarixi nailiyyətlərə imza atdı və bu proses hazırda uğurla - yüksələn xətt üzrə davam edir.

Bunlarla yanaşı, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V qurultayında YAP Sədrinin müavini, 2021-ci il mart ayının 5-də baş tutmuş VII qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, YAP-ın və dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın milli inkişafa xidmət edən çoxşaxəli fəaliyyətinin mühüm tərəflərindən birini Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər təşkil edir. Bu isə dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Reallıqlar isə onu deməyə əsas verir ki, Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini kimi fəaliyyəti bundan sonra da qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan YAP-ın yeni nailiyyətlər əldə edərək öz nüfuzunu daha da artırması, Azərbaycanın sürətli və hərtərəfli inkişafına davamlı töhfə verməsi baxımından olduqca əlamətdar olacaq.

## Gənclərin vahid seçimi - üçüncü minilliyin və gələcəyin partiyası

Yeni Azərbaycan Partiyası müasir çağırışlara cavab verən, öz fəaliyyətini yeni tendensiyalar əsasında davam etdirən dinamik ictimai-siyasi qüvvədir. Partiyamızın siyasi dinamizmini təmin edən mühüm amillərdən biri uğurlu gənclər siyasətinin həyata keçirilməsi, Azərbaycan gəncliyinin Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə güclü ictimai dəstək nümayiş etdirməsidir. Bunun nəticəsi özünü gənclərin Yeni Azərbaycan Partiyasına daimi və sürətli axınında göstərir.

Bu gün YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti gənclərdən ibarətdir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Partiyamız tarixi ənənələrə, müasir çağırışlara və mütərəqqi dəyərlərə əsaslanan fəaliyyəti ilə milli həmrəyliyin ideoloji düsturu olan azərbaycançılıq məfkurəsinin geniş təbliğinə və mənimsənilməsinə vacib töhfələr verir. Dünya azərbaycanlılarının, o cümlədən mütərəqqi qüvvə olan gənclərin milli ideologiyanı əxz edərək yüksək vətənpərvərlik nümayiş etdirməsində YAP-ın bu istiqamətdə məqsədyönlü fəaliyyətinin müstəsna rolu var. Bu, həmçinin Azərbaycanın sabitlik adası və təhlükəsizlik məkanı kimi sürətli və dayanıqlı inkişafına etibarlı zəmin yaradır. Prezident, partiyamızın Sədri İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir".

Əlbəttə, yenilikçi və fəal qüvvə olan, daim irəliyə baxan və perspektivi düşünən təbəqənin - sağlam düşüncəli gənclərin vahid seçiminin Yeni Azərbaycan Partiyası olması təsadüfi deyil. Çünki vətəndaşların ali mənafeyini qoruyan, gənclərin xalqa və dövlətə faydalı ideyalarını dəstəkləyən YAP Azərbaycanın dünəni, bugünü olduğu kimi, gələcəyi - aydın sabahı və parlaq perspektivi olduğunu da öz əməli fəaliyyəti ilə sübuta yetirib. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası Azərbaycanın bugününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.

## Çoxşaxəli beynəlxalq əməkdaşlıq - Azərbaycanın milli maraqlarının qətiyyətli müdafiəsi

Yeni Azərbaycan Partiyasının çoxşaxəli fəaliyyəti ölkədaxili ictimai-siyasi münasibətlərdə fəal iştirakla məhdudlaşmır, eyni zamanda beynəlxalq məzmun, xarakter və əhəmiyyət daşıyır. Daha dəqiq desək, Azərbaycanın davamlı, dayanıqlı və dinamik inkişafına ardıcıl töhfələr verməyi başlıca strateji vəzifə və fəaliyyət istiqaməti kimi müəyyənləşdirən YAP, həmçinin ölkənin inzibati-coğrafi sərhədlərindən - respublikamızın hüdudlarından kənarda səmərəli əlaqələr formalaşdırmaqla, davam və inkişaf etdirməklə öz missiyasını yerinə yetirir. Şübhəsiz ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyalarından olan YAP-ın beynəlxalq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi, keyfiyyətcə zənginləşməsi siyasi önəm daşımaqla ölkəmizin xarici əlaqələrinin daha da möhkəmlənməsinə əhəmiyyətli və vacib töhfədir. Xüsusi vurğulamaq lazımdır ki, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlər mühüm yer tutur. Bu münasibətlər çərçivəsində partiyalar arasında intensiv təmaslar davam etdirilir, səmərəli, faydalı müzakirələr, fikir və təcrübə mübadilələri aparılır. Bu kontekstdə dost, qardaş və strateji tərəfdaş Türkiyə Respublikasının hakim siyasi partiyası olan Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə münasibətlərin davamlı inkişafı xüsusi önəm daşıyır. Ümumiyyətlə, Azərbaycan-Türkiyə mənəvi-siyasi birliyinin və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni geostrateji reallıqların fonunda YAP-AK Parti əlaqələri də keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. İki hakim siyasi partiya dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələri daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə müvafiq siyasi, hüquqi addımlar atılır.

Bunlarla yanaşı, Yeni Azərbaycan Partiyasının beynəlxalq siyasi partiya təşkilatlarında da müvəffəqiyyətlə təmsil olunması ölkəmizin milli maraqlarının regional və qlobal səviyyədə qorunması baxımından böyük önəm daşıyır. YAP 51 ölkənin siyasi partiyalarının təmsil olunduğu "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" (ICAPP) Daimi Komitəsinin üzvü kimi bu nüfuzlu beynəlxalq platformanın imkanlarından istifadə etməklə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli fəaliyyət göstərir. Eyni zamanda Yeni Azərbaycan Partiyasının Almaniyanın, Fransanın, İtaliyanın, İspaniyanın və digər ölkələrin hakimiyyətdə olan partiyalarını özündə birləşdirən Avropa Xalqları Partiyası (EPP) ilə münasibətləri inkişaf və irəliləyişlə müşayiət olunur. Bu isə partiyamıza Avroatlantik məkanda Azərbaycan reallıqlarının təbliği, dövlətin siyasi maraqlarının müdafiəsi üçün əlavə imkanlar verir.

Bütövlükdə, partiyamızın səmərəli xarici əlaqələri və çoxşaxəli beynəlxalq əməkdaşlığı Azərbaycanın dövlətçilik maraqlarının qlobal arenada qorunması üçün mühüm vasitədir.

## Yeni çağırışlar və hədəflər - daha qüdrətli Azərbaycan naminə

Azərbaycan milli tərəqqinin yeni mərhələsinə qədəm qoyub. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Yeni dövrün reallıqlarına uyğun olaraq siyasi inkişafa xidmət edən islahatların aparılması, sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, milli həmrəyliyin, Azərbaycanın beynəlxalq arenada və qlobal informasiya müstəvisində mövqeyinin daha da gücləndirilməsi, Böyük qayıdışın yüksək səviyyədə həyata keçirilməsi, tarixi Qələbənin nəticələrinin möhkəmləndirilməsi və digər milli məqsədlər strateji prioritetlər kimi müəyyənləşdirilib. Təbii ki, hakim və alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının da bu istiqamətdə üzərinə mühüm vəzifə və məsuliyyət düşür.

Xüsusi vurğulamaq gərəkdir ki, tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın cari il martın 5-də baş tutmuş VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də yuxarıda bəhs olunan strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar, dayanıqlı, etibarlı və möhkəm zəmin yaradacaqdır.

Əminliklə söyləmək olar ki, Yeni Azərbaycan Partiyası yeni reallıqlar, həmçinin dövlətin qətiyyətli siyasəti, xalqın sarsılmaz həmrəyliyi fonunda öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Azərbaycanın növbəti tarixi nailiyyətlər qazanmasına və strateji zirvələr fəth etməsinə layiqli töhfəsini verəcəkdir!

***Tahir BUDAQOV,***
***YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri***

# Zəfər partiyası

## YAP-ın yaranmasının 29-cu ildönümünü qalib ölkənin alnıaçıq, üzüağ vətəndaşları kimi qeyd edirik

Yeni Azərbaycan Partiyası (YAP) müstəqil Azərbaycanın siyasi həyatının bütün mərhələlərində tarixi missiyasını uğurla yerinə yetirib. Partiyanın yarandığı dövrün reallıqlarına və sonrakı proseslərə nəzər yetirdikdə buna bir daha əmin oluruq.

Müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar ölkəmizi düşdüyü çətin vəziyyətdən xilas edə biləcək siyasi qüvvənin yaradılmasını zərurətə çevirdi. Bir qədər də dəqiqləşdirmə, təhlil aparsaq, qeyd edə bilərik ki, Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və həmin dövrdə mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Başqa sözlə desək, o dövrdə zamanın tələbi xalqın istəyi ilə vəhdət təşkil edirdi. Partiyamızın yaradılmasında fəal iştirakları və təşəbbüsləri ilə tarixə "91-lər" kimi daxil olan ziyalılarımız ümumilikdə xalqın böyük əksəriyyətinin arzu və istəklərini ifadə edirdilər. Azərbaycanın gələcək taleyini düşünən həmin insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir siyasi partiya yaratmaq təşəbbüsü ilə çıxış edərək bu məqsədlə zəngin dövlətçilik təcrübəsinə malik Liderin, Heydər Əliyev şəxsiyyətinin ətrafında birləşdilər.

YAP-ın bu il martın 5-də keçirilən VII qurultayında dövlət başçısı, partiyanın Sədri İlham Əliyev "91-lər"in fəaliyyətini yüksək qiymətləndirərək bildirmişdi: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar. Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."

Qurultayda bu reallıq da xüsusi qeyd edildi ki, 1992-ci ilin noyabr ayı gənc müstəqil ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. YAP-ın yaranmasından bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Ulu Öndər Heydər Əliyev xalqın yekdil səsi ilə Prezident seçildi və bundan sonra ölkəmizin böhrandan çıxma prosesi başladı.

Dahi Liderin hakimiyyətə qayıdışı Azərbaycanın və YAP-ın həyatında yeni mərhələnin əsasını qoydu. Yəni partiyanın yaradılması, Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın həyatında dönüş nöqtəsi oldu. Həm də bu baxımdan ki, hər iki tarixi hadisənin ölkəmizin həyatında, gələcək taleyində öz rolu vardır.

Ümummilli Lider hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını uğurla yerinə yetirərək Azərbaycanı düçar olduğu bəlalardan xilas etdi, yeni Azərbaycanın gələcək uğurlarına yol açdı. Azərbaycan dövlət müstəqilliyini qorudu, ölkəmiz müstəqil dövlət kimi varlığını dünyaya sübut etdi. Daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı alındı. Ulu Öndər Heydər Əliyev öz qayıdışı ilə Azərbaycana sülh, sabitlik, dirçəliş və davamlı inkişaf gətirdi. Çox qısa zamanda cəmiyyətin hər bir üzvündə dövlətimizin, dövlətçiliyimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı. Azərbaycanı dünyaya tanıtmaqla beynəlxalq aləmdə özünəməxsus yerini müəyyən edən dahi şəxsiyyətin zamanında atdığı addımların dərin mahiyyətini, bu addımların nə qədər gərəkli olduğunu partiyamızın yaradılmasının 29-cu ildönümünü qalib ölkənin vətəndaşları kimi alnıaçıq, üzüağ qeyd etdiyimiz bu günlərdə daha dərindən anlayır, əhəmiyyətini və nəticələrini həyatımızda hiss edirik.

2003-cü ildə xalqın mütləq əksəriyyətindən etimad mandatı alan cənab İlham Əliyev isə 18 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirdiyi misli görünməmiş işlərlə Ulu Öndərin layiqli davamçısı olduğunu təsdiqləyib. Əgər Ümummilli Lider Azərbaycanı parçalanmadan, müstəqilliyini itirmək təhlükəsindən qoruyub yeni inkişaf yoluna çıxardısa, Prezident İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə, dünyada söz sahibinə çevirdi.

Azərbaycan dövlətinin daxili və xarici siyasət sahələrində qazandığı uğurların geniş təhlilinə ehtiyac yoxdur. Bu baxımdan ki, artıq 30 illik torpaq həsrətimizə son qoyulması görülən işlərin, əldə olunan uğurların aydın mənzərəsini yaradır. Zəfərimizin formulu belədir: Prezident qətiyyəti, rəşadətli ordu, xalq-iqtidar birliyi, torpaq, Vətən sevgisi. 30 ilin işğalına 44 gündə son qoyulması xalqımızın Ali Baş Komandanın "Hücum!" əmrini səbirsizliklə gözlədiyinin təsdiqinə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev adını tarixə qalib Lider, torpaqlarımızın xilaskarı kimi yazdı.

Təbii ki, təkcə ölkəmizin deyil, regionun nüfuzlu siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının 29 ildə keçdiyi şərəfli yolu bir yazı çərçivəsində əhatə etmək mümkün deyil. Bununla belə onu deyə bilərik ki, bugünümüzün sevinci, qüruru uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizdir. Bir daha Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinin hər birini Zəfərimizin ildönümü, eyni zamanda YAP-ın yaradılmasının 29 illiyi münasibətilə təbrik edir, YAP-ın VII qurultayının qərarlarından irəli gələn vəzifələrin icrasında daha fəal olmağı arzulayıram.

***Vüqar RƏHİMZADƏ,***
***YAP-ın Xətai rayon təşkilatının sədri, "91-lər"in üzvü, siyasi elmlər doktoru***

# YENİ AZƏRBAYCAN PARTİYASI

## milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

**Ulu Öndərin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının 29-cu ildönümü Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan böyük Zəfər bayramı günlərinə təsadüf etdi. Bu günlərdə Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları və Azərbaycanı sevənlər 2020-ci ildə 44 günlük Vətən müharibəsində Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun mənfur qonşumuz, işğalçı Ermənistan üzərində parlaq qələbəsinin birinci ildönümünü böyük coşqu ilə qeyd etdi.**




# Xalqdan güc alan partiya

Bu qələbə sayəsində 30 ilə yaxın bir dövrdə Ermənistan ordusunun havadarlarının köməyi ilə BMT-nin 1993-cü ildə qəbul etdiyi qətnamələrə məhəl qoymadan işğal altında saxladıqları ərazi işğaldan azad olundu. İşğal dövründə respublikamızın dilbər guşəsi olan Qarabağda ermənilər onlara xas olan barbarlıq və vandalizm xislətlərini açıq-aydın şəkildə büruzə verərək bütün binaları və kommunikasiya xətlərini söküb-dağıdaraq ərazini viran qoymuşdular. Onlar meşələri qırmaq, yeraltı sərvətləri vəhşicəsinə talan etmək, çayları və digər su mənbələrini çirkləndirməklə, beynəlxalq konvensiyalara zidd olan və insanlığa sığmayan vəhşiliklər törətməklə bölgənin ekoloji və ümumi vəziyyətinə çox ciddi ziyan vurmuşlar.

Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü təmin etdi və 10 noyabr 2020-ci il tarixi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə Qələbə günü kimi yazıldı. Hazırda Yeni Azərbaycan Partiyasının Sədri, respublikamızın Prezidenti İlham Əliyevin rəhbərliyi, diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərdə böyük bərpa və yenidənqurma işləri aparılır, Qarabağa Böyük qayıdışı təmin etmək üçün lazımi tədbirlər görülür. Bu məqsədlə 2021 və 2022-ci illərin dövlət büdcəsindən 3,4 milyard manat vəsait ayrılması nəzərdə tutulmuş, bərpa və quruculuq işlərinin yerinə yetirilməsində daxili və xarici investorlar üçün əlverişli şərait yaradılmışdır.

Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və keçdiyi şərəfli yola nəzər saldıqda görürük ki, bu yol heç də həmişə asan olmamışdır. Belə ki, müstəqilliyimizin ilk illərində ərazilərimizin ardıcıl işğalı, dərin iqtisadi-siyasi böhran və xaos, əhalinin sosial durumunun getdikcə ağırlaşması ölkədə həyatı iflic vəziyyətinə salmışdı. Həmin dövrdə respublikamızda 30-a yaxın siyasi partiya, ictimai təşkilat və hərəkat mövcud olsa da, onlar xalqı səfərbər edəcək qədər sosial bazaya malik deyildilər və aralarında xalqın ümumi mənafeyi naminə birlik yox idi. Belə bir vaxtda müstəqilliyimizin qorunub saxlanmasını təmin etmək üçün xalqın inanıb arxasınca gedəcək lideri olan bir partiyaya ehtiyacı vardı. Bu lider isə heç şübhəsiz ki, Azərbaycan xalqının Böyük oğlu, dünya şöhrətli tanınmış siyasi xadim Heydər Əlirza oğlu Əliyev idi.

Məhz buna görə bütün ölkə vətəndaşları nəzərlərini Naxçıvana dikməklə xalqın düçar olduğu dözülməz bəlalardan xilas olmasını Ulu Öndər Heydər Əliyevin yenidən Azərbaycanın siyasi hakimiyyətinə qayıdışında görür, müxtəlif bölgələrdə mitinqlər keçirilərək insanlar Heydər Əliyevi respublikaya rəhbərliyə dəvət edirdilər. Bunu nəzərə alaraq 1992-ci il oktyabrın 16-da respublikamızın 91 nəfər tanınmış ziyalısı "Əlincə" cəmiyyətinin nəşr etdirdiyi "Səs" qəzeti vasitəsilə Ulu Öndərə "Azərbaycan Sizin sözünüzü gözləyir" deyə müraciət etdi. Müraciətdə Heydər Əliyevə xitabən deyilirdi: "Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşərək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir".

Bu müraciətdən sonra bütün Azərbaycan böyük ümidlə öz Böyük oğlu Heydər Əliyevdən cavab gözləyirdi. Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də "Yeni müstəqil Azərbaycan uğrunda" çağırışı ilə başlayan cavab verdi.

Ulu Öndər cavab məktubunda Azərbaycanın bütövlüyünün təhlükə qarşısında olması, ölkədə hökm sürən hərcmərclik, vətəndaş qarşıdurması, insanların yaşayış səviyyəsinin dözülməzliyi ilə bağlı ziyalıların narahatlığını bölüşərək, yaranmış vəziyyəti təhlil edərək AXC-Müsavat hakimiyyətinin əsl mahiyyətini açdı və vəziyyətdən çıxış yollarını göstərdi. Məktubda vurğulanırdı ki, ölkə qarşısında duran vəzifələr müstəqil dövlətin qurulması, milli-demokratik dövlət atributlarının formalaşdırılması, Azərbaycanın suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunması, vətəndaşların dinc, firavan həyat səviyyəsinin təmin edilməsi, iqtisadi böhranın aradan qaldırılması və sair taleyüklü məsələlərdir. Görkəmli siyasi xadim Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətdən doğduğunu vurğulayaraq onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bəyan etdi. Heydər Əliyevin bu cavabından və ölkənin sağlam qüvvələrinin Ulu Öndərin ətrafında sıx birləşmək niyyətindən təşvişə düşən odövrkü iqtidar oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd göstərdi. Xalq Cəbhəsinə məxsus silahlı dəstələr Muxtar Respublika Daxili İşlər Nazirliyinin, Televiziya və Radio Verilişləri Komitəsinin, rabitə idarəsinin, şəhər elektrik şəbəkəsinin binalarını zəbt edib muxtar respublika hakimiyyəti əleyhinə bəyanat verdilər. Buna baxmayaraq, 50 mindən çox insan qısa bir vaxtda Heydər Əliyevi müdafiə etmək üçün Ali Məclis binasının qarşısına gəldi. Xalq Cəbhəsinin silahlıları parlament binasına hücum etməkdən çəkindilər. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi. Əhali silahlı dəstələri dövlət idarələrindən qovub çıxardı. Bu hadisələr barədə Heydər Əliyev belə demişdir: "Biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman - bəziləri bunu da bizə çox görürdülər, - Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi Daxili İşlər Nazirliyinin binasını zəbt etdi. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağırışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki xalq bizimlə idi".

Heydər Əliyevin yeni partiyanın yaradılması ilə bağlı ziyalıların müraciətinə verdiyi müsbət cavab onun böyük məsuliyyəti öz üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Bütün təzyiqlərə baxmayaraq, tez bir zamanda Azərbaycanın hər yerində yeni partiyanın təsis konfransına hazırlıq işlərinə başlanıldı. AXC-Müsavat hakimiyyəti Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakıda keçirilməsinə imkan verməyərək çoxlu maneələr törətdi. Buna baxmayaraq, partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi. Konfrans Azərbaycanın müxtəlif regionlarını təmsil edən təşəbbüs qruplarının 550 nəfərdən çox nümayəndəsinin iştirakı ilə Naxçıvan Dövlət Dram Teatrının binasında keçirildi. Konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunaraq qəbul edildi. Ulu Öndər yekdilliklə partiyanın sədri seçildi və Təşkilatın rəhbər orqanları formalaşdırıldı. Heydər Əliyev sonralar həmin günü belə xatırlayırdı: "Biz 1992-ci ilin şaxtalı bir günündə, istilik olmayan bir zalda, Naxçıvan Dövlət Dram Teatrının binasında paltoda və çoxları papaqda oturaraq ilk konfransımızı keçirirdik. Üşüyürdük, əlimizi əlimizə sürtürdük. Amma iradəmiz yüksək idi, iradəmiz güclü idi. Gələcəyə çox nikbinliklə baxırdıq... Məni sevindirən odur ki, ağır şəraitdə Naxçıvanda keçirdiyimiz konfrans ölkənin və partiyanın böyük inkişaf yolunu təmin etdi". Ulu Öndərin ozamankı mürəkkəb durum və yaranmış təhlükəli vəziyyətdən çıxış yolunu göstərən, onun müdrik tövsiyələrini əks etdirən cavab məktubu sonralar YAP-ın fəaliyyətinin əsas prinsip və istiqamətlərini təşkil etdi.

Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası Heydər Əliyevin rəhbərliyi altında tezliklə təşkilatlandı. Ulu Öndərin adını daşıyan bu partiya yarandığı gündən azərbaycançılıq və dövlətçilik mövqeyindən çıxış edərək öz siyasi platforması, qətiyyətli mövqeyi sayəsində çox qısa zamanda vətənpərvər insanların siyasi istinadgahı kimi əsl ümumxalq partiyasına çevrildi.

Heydər Əliyevin Azərbaycan xalqının təkidli tələbi ilə tezliklə ölkə rəhbərliyinə yenidən qayıdışı sayəsində Yeni Azərbaycan Partiyası müxalifət partiyasından iqtidar partiyasına çevrildi. Ölkənin hakim partiyası kimi YAP müstəqillik tariximizdə mühüm rol oynadı. Ulu Öndərin milli məfkurəsindən güc alan bu partiya qısa zamanda ölkədə sabitliyi bərqərar edən, demokratik dəyərlərə üstünlük verən, hüquqi, demokratik, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinə layiqli töhfələr verən real siyasi qüvvə kimi özünü təsdiq etdi.

Keçən dövr ərzində YAP qəbul etdiyi Proqram və Nizamnaməyə uyğun olaraq dövlətçiliyimizin və xalqımızın inkişafı naminə misilsiz xidmətlər göstərmişdir. Ötən 29 il ərzində Yeni Azərbaycan Partiyası sıralarında siyasətçilərin yeni nəsli yetişmişdir. Bu nəslin ən parlaq nümayəndəsi, dərin fəlsəfi və milli köklərə malik Heydər Əliyev siyasi məktəbinin yetirməsi olan cənab İlham Əliyev öz çoxşaxəli fəaliyyəti sayəsində Azərbaycan xalqının dərin rəğbətini qazanmışdır. 2000-ci il parlament seçkilərində İlham Əliyev Yeni Azərbaycan Partiyasının seçki kampaniyasına rəhbərlik etdi və noyabr ayında Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə bu partiya böyük uğur əldə edərək parlamentdə yerlərin əksəriyyətini qazandı. Partiyanın 2001-ci il noyabrın 21-də keçirilən II qurultayının qətnaməsində bu barədə belə deyilirdi: "Parlament seçkiləri kampaniyası gedişində yüz minlərlə seçici qarşısında İlham Əliyevin qətiyyətli, məntiqli, praqmatik çıxışları xalqa onu Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi daha yaxından tanıtmışdır". Qurultayda partiyanın Nizamnaməsinə dəyişiklik edildi və yeni təsis olunmuş partiya Sədrinin birinci müavini vəzifəsinə yekdilliklə İlham Əliyev seçildi.

Ulu Öndərin və onun qurucusu olduğu partiyanın ən böyük nailiyyətlərindən biri də siyasi varislik probleminin uğurla həll edilməsi, Azərbaycanın işıqlı gələcəyinə təminat yaradılması oldu. Böyük dövlət xadimi Heydər Əliyevin 2003-cü ilin oktyabrında, prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində deyilirdi: "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var" söyləyən Ulu Öndər Heydər Əliyev bildirmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində YAP Sədrinin birinci müavini cənab İlham Əliyev xalqın böyük etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi və partiyanın siyasi taleyində yeni dövr başladı.

2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsinə sədaqət andı içərək demişdir: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərək mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm". Bu siyasətin mahiyyətini Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin müdrikliyi, qətiyyəti, dövlət idarəçiliyi, zəngin təcrübəsi sayəsində ölkəmizdə siyasi sabitliyin bərpa olunması, bazar iqtisadiyyatına keçidi təmin etmək üçün iqtisadi islahatlara başlanması, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ müharibəsində 1994-cü ildə atəşkəsin elan edilməsi, Azərbaycan və dünya neft strategiyasının və siyasətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu, dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən çoxsaylı tədbirlər təşkil edirdi. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" isə formalaşmaqda olan yeni ictimai şəraitdə ölkəmizin sosial-iqtisadi inkişafının təməlini qoydu.

Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin qorunub saxlanmasında mühüm əhəmiyyət kəsb edən ərzaq təhlükəsizliyinin təmin edilməsi, azad sahibkarlığın bərqərar olması və əhalinin maddi rifah halının yaxşılaşması üçün MDB məkanında analoqu olmayan və sosial ədalət prinsipinə əsaslanan torpaq islahatı həyata keçirildi.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafını təmin etməyə yönələn bu siyasət 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti, 2005-ci il martın 26-da partiyanın III qurultayında Yeni Azərbaycan Partiyasının Sədri seçilən İlham Əliyev tərəfindən və onun rəhbərliyi sayəsində əsas hərəkətverici qüvvə olan YAP üzvlərinin fəal iştirakı ilə uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası bu gün regionun lider dövlətidir və respublikamızın iştirakı və ya razılığı olmadan bölgədə heç bir layihə həyata keçirilə bilməz. Əməkhaqların, pensiyanın və digər sosial ödəmələrin 2003-cü ilə nisbətən dəfələrlə artması, işsizlik və yoxsulluq səviyyəsinin minimuma endirilməsi, adambaşına istehsal olunan ümumi daxili məhsulun dinamik artımı Azərbaycanı dünyanın ən qabaqcıl ölkələri sırasına çıxarmışdır. Çox qısa bir müddətdə əldə etdiyimiz bu heyrətamiz sosial-iqtisadi nailiyyətlər və 1993-cü ildən başlayaraq həyata keçirilən müstəqil siyasət Azərbaycanı dünyada söz sahibi etmişdir. 2020-ci ilin sentyabr-noyabr aylarında Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasətinin nəticəsində Azərbaycanın Müzəffər Ordusunun 30 illik erməni işğalına son qoyması, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifinin 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradaraq Ermənistan ordusunu darmadağın etməsi və "Dəmir yumruq" əməliyyatının Azərbaycanın şanlı Qələbəsi ilə başa çatması İlham Əliyevin həyata keçirdiyi Heydər Əliyev siyasətinin nə qədər düzgün, uzaqgörən, xalqın və dövlətin mənafeyinə yönəlmiş olduğunu bir daha sübut etdi.

Məhz bu siyasət nəticəsində ikinci dəfə hakimiyyətdə olduğu müddətdə partiyamızın lideri Heydər Əliyev ona xas olan siyasi təcrübəsi, hərtərəfli və dərin biliyi, yenilməz cəsarəti sayəsində müstəqilliyin ilk illərində hakimiyyətdə olan iqtidarların yarıtmaz və dövlətçiliyə zidd fəaliyyətləri nəticəsində Azərbaycanı düşdüyü dərin böhrandan xilas edərək onu məhv olmaq təhlükəsindən şərəflə qorudu və sabit inkişaf yoluna çıxardı. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev isə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək ölkəmizin tarixinə qızıl hərflərlə yazılan Prezident kimi daxil oldu.

Yeni Azərbaycan Partiyası bu gün cəmiyyətdə bütün proseslərin mərkəzində dayanan çox ciddi siyasi güc kimi qəbul edilir. Partiyanın iqtidarda olduğu dövrünün ən parlaq uğurlarından biri müstəqil Azərbaycanın davamlı və sabit tərəqqi yoluna çıxarılması, onun milli iqtisadi inkişaf modelinin formalaşdırılmasıdır.

YAP-ın üstün cəhətlərindən biri milli dəyərlərə söykənərək inkişaf etməsidir ki, bunun sayəsində də hazırda bu partiya Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, həm də öz xalqına ən yaxın siyasi təşkilatdır. Yeni Azərbaycan Partiyası həm də daim yenilənən partiyadır. Partiyanın 2021-ci il mart ayının 5-də keçirilən VII qurultayında idarə heyətinə gənc partiya üzvləri seçilmiş, partiya aparatının daha çevik işləməsini təmin etmək üçün struktur dəyişikliyi aparılmışdır. YAP bu gün təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından çox-çox uzaqlarda da qəbul olunan nüfuzlu təşkilatdır. YAP-ın zəfərlər partiyası kimi nüfuz qazanmasını şərtləndirən əsas amil həmişə xalqın böyük əksəriyyətinin dəstəyini qazanmasıdır. Bunun nəticəsidir ki, 2008, 2013 və 2018-ci illərdə Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev 2003-cü ildə olduğu kimi, seçicilərin böyük əksəriyyətinin dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Ötən 29 il ərzində YAP parlament tipli partiya kimi ölkədə aparılan islahatların və demokratik dəyişikliklərin hüquqi bazasının yaradılması işinə öz layiqli töhfəsini verir. Bütün bu illər ərzində partiyanın deputatlığa irəli sürdüyü namizədlərin böyük əksəriyyəti seçkilərdə parlaq qələbə qazanır və Yeni Azərbaycan Partiyası Milli Məclisdə çoxluq təşkil edir.

Partiyanın Sədri, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası regionda analoqu olmayan bir partiyadır:

"Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Partiyamızın xarici əlaqələri çox genişdir və bu əlaqələr gündən-günə genişlənir. Ölkə daxilində mövqelər çox möhkəmdir. Partiyamız, demək olar ki, cəmiyyətimizin bütün təbəqələrini, bütün yaş qruplarını birləşdirir. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasıdır. Əminəm ki, növbəti illərdə də partiyamız liderlik qabiliyyətini özündə saxlayacaqdır".

***Eldar İBRAHİMOV,***
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri, professor***

# Cənubi Qafqazın ən böyük siyasi gücü

**Bu gün Yeni Azərbaycan Partiyasının təsis olunmasının 29-cu ili tamam olur. 1992-ci ilin 21 noyabr tarixində xalqımızın Ulu Öndəri, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın yaranması Azərbaycanın müstəqillik tarixinin mühüm siyasi hadisələrindən biridir. Bu gün dönüb geriyə baxanda, müstəqillik tariximizi izləyəndə bir daha görürük ki, Ulu Öndərin rəhbərliyi ilə YAP-ın böyük bir qüvvə kimi siyasi meydana çıxması dövlətçiliyimizin qorunmasına aparan tarixi bir mücadilənin başlanğıcı olmuşdur.**

Azərbaycanın 30 ili geridə qalan müstəqillik tarixi qürur mənbəyimizdir. Amma təəssüf ki, müstəqilliyimizin ilk illəri tariximizə gərgin, ağır, hətta qanlı-qadalı bir dövr kimi yazılıb. Həmin illər hakimiyyətdə bir-birini əvəz edən iqtidarlar təzəcə qazanılmış müstəqillik və yeni siyasi-iqtisadi dövrə keçid şəraitində öz məsuliyyətlərini anlaya bilmədilər. Buna görə də Xalq Cümhuriyyətinin taleyini yaşamağa yaxın idik. Böhranlı vəziyyət, ölkədə baş alıb gedən anarxiya və xaos, hakimiyyətsizlik, dövlət idarəçiliyinin iflic vəziyyətində olması hər kəsi dərindən narahat edirdi və ziyalılar da bu səbəblərdən böyük şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevə müraciət etmişdilər. Çünki hər kəs haqlı olaraq hesab edirdi ki, Azərbaycanı məhv olmaqdan xilas edəcək, müstəqilliyimizi qoruya biləcək yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.

1993-cü ilin yayına doğru ölkədə vəziyyət artıq son dərəcə təhlükəli hal almışdı. Gəncə hadisələri, cəbhədəki uğusuzluqlar, separatçılığın baş alıb getməsi dövlətçiliyimizi və müstəqilliyimizi sürətlə uçuruma sürükləyirdi. Həmin günlərdə xalqın təkidli tələbi ilə Bakıya gələn Ulu Öndər Heydər Əliyev ilk gündən öz xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirməyə başladı. Zəngin idarəçilik və siyasi təcrübəsi olan Ulu Öndər Azərbaycanın müstəqilliyinin itirilməsinin qarşısını aldı, dövlətçiliyimizi xilas etdi, siyasi böhrana və vətəndaş qarşıdurmasına son qoydu.

1993-cü ilin oktyabr ayında Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə YAP-ın həyatında yeni mərhələ başladı. Hakim partiyaya çevrilən YAP bu statusu qazandığı ilk gündən proqramında qarşıya qoyduğu vəzifələrin icrasına, ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirməyə, Azərbaycanı düçar olduğu təhlükə və böhranlardan qurtarmaq üçün özünün məqsədyönlü fəaliyyətinə başladı. Güclü lideri, mükəmməl proqramı, təkmil siyasi platforması, qətiyyətli mövqeyi sayəsində, digər tərəfdən azərbaycançılıq və dövlətçilik mövqeyində durduğu üçün öz sıralarında yüzminlərlə üzvü birləşdirərək əsl ümumxalq partiyasına çevrildi.

Ümummilli Lider Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də xalqına müraciətində demişdi: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər". Həmin il Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də Yeni Azərbaycan Partiyasının nailiyyəti idi. 2003-cü ildən sonra keçirilən bütün seçkilərin qalibi olan İlham Əliyevin qələbəsi həm də YAP-ın zəfəri, uğurudur.

Ötən 18 ildə Ulu Öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin uğurlu fəaliyyəti, iqtisadi siyasəti nəticəsində Azərbaycan möhtəşəm inkişaf yolu keçib. Cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən hər bir nailiyyət YAP-ın da cəmiyyətdəki alternativsiz qüvvə statusunu möhkəmləndirib. YAP-ın hakim partyia kimi cəmiyyətdəki uğurları həm də Prezident İlham Əliyevin fəaliyyəti fonunda nəzərdən keçirilir. Təsadüfi deyil ki, YAP-ın sıraları da ildən-ilə genişlənməkdədir. Hazırda partiyanın sıralarında 760 min nəfərdən çox vətəndaşımız birləşir. Bu, dövlət başçısına və YAP-a olan dərin inamdan irəli gəlir. Üzvlərinin sayına görə YAP həm də bütün Cənubi Qafqazın ən böyük siyasi gücü statusunu daşıyır.

Prezident İlham Əliyev bildirib ki, hər bir partiya üzvü Ümummilli Lider Heydər Əliyevin həyata keçməyən ali ideallarını, müqəddəs arzularını gerçəkləşdirmək üçün əlindən gələni etməli, dövlətçiliyimizin inkişafına və tərəqqisinə daim xidmət göstərməlidir. Biz bu gün bunu Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətində qabarıq görürük.

Onu da qeyd etmək istərdim ki, bu ilin martında keçirilən YAP-ın VII qurultayı partiyanın fəaliyyətində yeni mərhələnin başlanğıcı oldu. Respublikamızda baş verən pozitiv dəyişikliklər, xüsusən Vətən müharibəsindəki qələbə fonunda keçirilən bu qurultayda yeni Nizamnamənin qəbul olunması, İdarə Heyətinin 40 nəfərdən ibarət tərkibdə seçilməsi partiyada fəaliyyətin tənzimlənməsinin yeni, çevik mexanizminin yaradılması baxımından aktuallıq kəsb etdi.

YAP bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Lider Heydər Əliyevin ideyalarını, məqsəd və məramlarını rəhbər tutaraq Azərbaycanın inkişafına, dövlətçiliyimizin qüdrətlənməsinə xidmət edəcək, vətəndaşların alternativsiz siyasi etimad ünvanı olacaq.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# İŞİMİZ, GÜZƏRANIMIZ




# Sosial güvənlik, iqtisadi tərəqqi və milli təhlükəsizlik büdcəsi

Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm qələbəsindən bir il keçir. Ölkəmiz ağır bir savaşdan çıxıb. Buna baxmayaraq, sona çatmaqda olan 2021-ci il uğurlu olub. İşğaldan azad edilmiş ərazilərimizdə geniş bərpa və quruculuq işləri aparılmaqla yanaşı, digər bölgələr və sosial-iqtisadi sahələr də diqqət mərkəzindən kənarda qalmayıb. Bir sözlə, yaşadığımız bu ili nailiyyətlər ili kimi yola salacağıq. Tarix sübut edib ki, müharibədən çıxan hər ölkə heç də buna qadir ola bilmir.

Məlum olduğu kimi, hazırda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin Milli Məclisdə müzakirəsi keçirilir. Aydın görünür ki, 2021-ci ildə dinamik artım tempinin, eləcə də büdcə gəlirlərinin və xərclərinin icrasında qarşılıqlı nisbətin qorunub saxlanılması, büdcə kəsirinin proqnozlaşdırılan səviyyədən xeyli aşağı olması, tədiyyə balansı hesablarında müsbət dinamikanın qorunması, qeyri-neft ixracının və qeyri-neft vergi daxilolmalarının əhəmiyyətli artması, makroiqtisadi sabitlik növbəti ilin dövlət büdcəsinin planlaşdırılmasında mühüm baza rolunu oynamışdır. Qeyd edək ki, bu il dövlət büdcəsinin icrası və aparılan uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizin ilin sonuna qədər ÜDM-in real artımının neftin bir barelinin orta illik qiymətinin 50 dollar təşkil edəcəyi ssenarisində 5,1 faiz, o cümlədən qeyri-neft sektorunun real artım tempinin 6 faiz olacağı proqnozlaşdırılır. Həmçinin xatırladaq ki, cari ilin ilk 10 ayının göstəricilərinə görə neftin bir barelinin orta illik qiyməti 68 dollar olmuşdur.

2022-ci ilin dövlət büdcəsi layihəsi 26,8 milyard manat gəlir və 29,9 milyard manat xərc ilə təqdim olunmuşdur. Mütəxəssislər bunun ölkəmizin cari və strateji inkişaf hədəflərinə, iqtisadi siyasətinə və qarşıda duran çağırışları dəf etmək iqtidarında olacağı qənaətindədirlər. Xərclərin əsas istiqamətləri bunlardır: ümumi dövlət xidmətləri, qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti, müdafiə və milli təhlükəsizlik, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, kənd təsərrüfatı, iqtisadi fəaliyyət.

Layihədə "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər"in ümumi istiqamətləri nəzərə alınmış, bu istiqamətlərin dəstəklənməsi üçün maliyyə imkanları yaradılmışdır. Gələn il neftin bir barelinin orta illik qiymətinin 50 dollar, ÜDM-in real artım tempinin 3,9 faiz, qeyri-neft sektorunun ÜDM-də payının 70 faiz, inflyasiyanın orta illik səviyyəsinin 4 faiz, orta aylıq əməkhaqqı artımının 8,7 faiz olacağı ilə bağlı göstərilən hədəflər real hesab edilmişdir. Şübhəsiz ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar və yaratdığı geosiyasi reallıqların nəticəsində inkişaf potensialı daha yüksək olacaq, bu da büdcə gəlirlərinin artımına müsbət təsiri gücləndirəcək.

Təqdim edilmiş büdcə zərfində ÜDM-in növbəti il və sonrakı 3 il ərzində orta hesabla hər il 4 faiz, qeyri-neft sektorunun 5,1 faiz, qeyri-neft sənayesinin 8,2 faiz, kənd təsərrüfatının 4 faiz, turizm və ictimai iaşənin 32 faiz, informasiya və rabitə sektorunun 11,3 faiz, qeyri-neft sektoru üzrə əsas kapitala qoyulan investisiyaların 7 faiz artması proqnozlaşdırılıb. Həmçinin proqnozlaşdırılır ki, sözügedən dövr ərzində əhalinin gəlirlərinin 4 faiz orta illik real artımı olacaq, xarici dövlət borcu isə azalacaq. Kənd təsərrüfatı, özəlləşdirmə, xarici investisiyaların və xüsusilə də özəl investisiyaların cəlb edilməsi istiqamətləri üzrə əlavə potensialın olacağı da düşünülür.

Qeyd edildiyi kimi, cari ildə iqtisadiyyatın proqnozlaşdırıldığından xeyli artıq tempdə və həcmdə artması, dövlət büdcəsi gəlirlərinin, xüsusilə də vergi və gömrük rüsumu gəlirlərinin proqnozdan xeyli artıq daxil olması 2022-ci il dövlət büdcəsi gəlirlərinin planlaşdırılması üçün əsas baza rolunu oynamışdır. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dövlət büdcəsi xərclərinin 2021-ci ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 1.336 milyon manat artırılmasının ölkədə aparılan sosial-iqtisadi inkişaf strategiyasına uyğun olduğunu deyir: "Sosial xərclərin ilk dəfə olaraq dövlət büdcəsi xərclərinin 46,4 faizini təşkil etməsi, təhsil, səhiyyə, sosial müdafiə, müdafiə və təhlükəsizlik kimi prioritet xərc istiqamətləri üzrə xərclərin artırılması bu sahələrdə aparılan dövlət siyasətinin maliyyə təminatının yaradılmasına xidmət edir. Eyni zamanda Azərbaycan Prezidentinin sosial ödənişlərin artırılması üçün imzaladığı sərəncamın maliyyə təminatı üçün büdcədə 1.441 milyon vəsaitin nəzərdə tutulması 1,6 milyona yaxın vətəndaşın sosial rifahına birbaşa təsir edəcəkdir".

Bu da bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşın maraqları dayanır. Belə ki, indi dövlət işğaldan azad edilmiş ərazilərimizdə geniş-miqyaslı bərpa-quruculuq işləri aparsa da, əhalinin maddi rifah halını yaxşılaşdırmaq üçün sosial xərcləri əhəmiyyətli dərəcədə artırır.

Layihədə fiziki və hüquqi şəxslərin 2022-ci ildə büdcəyə daxil olacaq vergi və rüsumlardan azad olmalarının həcminin 5,5 milyard manata çatacağı göstərilir ki, bu da büdcənin qeyri-neft gəlirlərinin 43 faizinə bərabər olacaq. Həmin rəqəm dövlətin dolayı yolla iqtisadi subyektlərə və vətəndaşlara etdiyi böyük dəstəyin mühüm göstəricisidir.

Ölkəmiz yeni ilə yeni reallıqlarla daxil olur. Bu baxımdan 2022-ci ilin dövlət büdcəsi layihəsində işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinə xüsusi əhəmiyyət verilməsi önəmlidir və təqdirəlayiqdir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov layihədə Qarabağın yer almasının qürurverici olduğunu deyib: "Gələn ilin büdcəsinin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasının ön sırada dayanması tamamilə obyektivdir və dövrün, zamanın çağırışlarına adekvatdır".

Deputat dövlət büdcəsindən hərbi məqsədlər üçün kifayət qədər vəsaitin ayrılmasını da mühüm məsələ kimi qeyd edib. O, həmçinin bildirib ki, ümumilikdə büdcə gəlirlərinin proqnozlaşdırılmasında, xərclərin müəyyən olunmasında bu günün tələbləri, eyni zamanda cəmiyyətin gözləntiləri öz əksini tapıb. Səhiyyə, təhsil, müdafiə, COVID-19 pandemiyası ilə mübarizə və digər strateji əhəmiyyətə malik sahələr üçün nəzərdə tutulmuş vəsaitlərin artırılması dövlətimizin daha da gücləndirilməsinə, cəmiyyətimizin inkişafına öz töhfəsini verəcək. 2022-ci ilin büdcəsinin hər il olduğu kimi, bu dəfə də həm sosial, həm də investisiyayönümlü olduğunu diqqətə çatdıran deputat gələn ilin dövlət büdcəsinin Azərbaycanın müstəqillik tarixində ən böyük büdcə olduğunu vurğulayıb.

2022-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3056 milyon manat məbləğində nəzərdə tutulur. Kəsirin həcmi 2021-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 53 milyon manat azdır. Dövlət büdcəsinin kəsirinin maliyyələşməsində dövlət əmlakının özəlləşməsindən daxil olan, daxili bazarda yerləşdiriləcək dövlət istiqrazları hesabına cəlb ediləcək vəsaitdən istifadə edilməsinin planlaşdırılması müsbət qəbul edilir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, yaşadığımız bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrüdür. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi də məhz bu dövrdə dövlətimizin siyasətinin aydın göstəricisi olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Dövlət büdcəsinə daxilolmaların 21,65 faizini ƏDV təşkil edib

Cari ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirləri dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları da nəzərə alınmaqla, 17 milyard 948,6 milyon manat, xərcləri isə 17 milyard 712,1 milyon manat təşkil edib.




Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, daxilolmaların 21,65 faizi əlavə dəyər vergisi, 12,72 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 5,52 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,82 faizi fiziki şəxslərin gəlir vergisi, 4,43 faizi aksizlər, 1,21 faizi sadələşdirilmiş vergi, 1,99 faizi vergilərin digər növləri, 47,66 faizi isə vergi olmayan gəlirlər hesabına təmin olunub.

## Azərbaycanın və Türkiyənin rabitə administrasiyaları arasında ikitərəfli radiotezliklərin koordinasiya görüşü olub

Azərbaycanın və Türkiyənin rabitə administrasiyaları arasında ikitərəfli radiotezliklərin koordinasiya görüşü keçirilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ankara şəhərində Azərbaycan Respublikasının və Türkiyə Respublikasının rabitə administrasiyaları arasında rəqəmsal TV və radio yayımı stansiyaları, mobil rabitə şəbəkələri üzrə radiotezlik təyinatlarının razılaşdırılmasına dair ikitərəfli koordinasiya iclası keçirilib.

İclasda ölkəmizi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi, Dövlət Radiotezliklər İdarəsi, eləcə də mobil rabitə operatorlarının nümayəndələri təmsil ediblər.

Hər iki ölkənin sərhədyanı ərazilərində rəqəmsal radio və televiziya yayımının tezlikləri və digər texniki parametrləri, koordinasiyanın prinsip və meyarları, mobil sistemlər üçün tezliklərdən istifadə və texniki parametrlər müzakirə olunaraq tərəflər arasında razılaşdırılıb.

## Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi artıb

Cari ilin yanvar-oktyabr ayları ərzində Gürcüstan ilə Azərbaycan arasında ticarət dövriyyəsi 892 milyon 123,5 min ABŞ dolları həcmində olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan Milli Statistika Xidmətindən məlumat verilib. Bildirilir ki, hesabat dövründə Gürcüstandan Azərbaycana 443 milyon 379,9 min dollar həcmində mal ixrac olunub. Bu da 2020-ci ilin eyni dövrü ilə müqayisədə 21,6 faiz çoxdur.

Azərbaycandan idxal olunan malların həcmi isə keçən ilin eyni dövrü ilə müqayisədə 11,8 faiz artaraq 448 mil-



yon 743,6 min dollar təşkil edib.

## "İşğaldan azad olunmuş torpaqlarımızda müasir və böyük tinglik yaradılır"

"İşğaldan azad olunmuş torpaqlarımızda türk tərəfdaşlarımızla birlikdə müasir və böyük tinglik yaradılır. İnanırıq ki, bu cür tingliklər Qarabağ torpaqlarında yaşıllıqların bərpasına töhfə verəcək".

AZƏRTAC xəbər verir ki, bu sözləri Ağdamda keçirilən ağacəkmə aksiyasında ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib.

Respublika üzrə böyük yaşıllaşdırma işlərinin aparıldığını bildirən nazir Ağdam şəhərində keçirilən ağacəkmə aksiyasının Ağdamın işğaldan azad olunmasının ildönümünə həsr olunduğunu söyləyib. "Şadıq ki, bu gün Ağdamdayıq, burada gözəl park salırıq. Əminəm ki, bu yerlər tezliklə yaşıllaşacaq və təbiətə töhfə olacaq", - deyə Muxtar Babayev əlavə edib.

## Daha 3 rayonda uşaqların səyyar formada sosial reabilitasiyasına başlanılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi Bakının daha üç rayonunda - Nizami, Sabunçu və Suraxanı rayonlarında sağlamlıq imkanları məhdud 6 yaşadək uşaqların səyyar formada sosial reabilitasiyası tədbirlərinə başlayıb.

Agentliyin psixoloq, pedaqoq, sosial işçi və loqopedlərdən ibarət mütəxəssislər qrupu həmin uşaqların yaşadıqları evlərə gedərək, onları sistemli şəkildə sosial-psixoloji və sosial-pedaqoji reabilitasiya xidmətləri ilə təmin edir. Uşaqlarda davranış pozuntuları, əhvalın qeyri-sabitliyi, hiperaktivlik, adaptasiya və həmyaşıdlarla ünsiyyət problemi və s. kimi halların reabilitasiyası aparılır.

Bu məqsədlə müxtəlif proqram və terapiyalardan, pedaqoji texnika və pediatrik reabilitasiya üsullarından istifadə olunur. Layihə çərçivəsində psixoloji konsultasiyalar, həftədə beş dəfə reabilitasiya seansları, valideynlər üçün maarifləndirici təlim və seminarlar keçirilir.



Cari ilin iyun ayında başlanan layihə artıq paytaxtın 7 rayonunu (Səbail, Yasamal, Nərimanov, Binəqədi, Nizami, Sabunçu, Suraxanı) əhatə edir.

Xidmətdən yararlanmaq istəyənlər Sosial Xidmətlər Agentliyinə və Agentliyin prosesin keçirildiyi rayonlar üzrə filiallarına müraciət edə bilərlər.

## Aqrar Məşğulluğun Artırılması Layihəsi çərçivəsində panel görüş keçirilib

Aqrar Məşğulluğun Artırılması Layihəsi (AMAL) çərçivəsində panel görüş keçirilib. Görüş Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova Aqrar Kredit və İnkişaf Agentliyinin təşəbbüsü ilə bir neçə ay əvvəl start verilmiş layihəyə regionlarda çox böyük maraq göstərildiyini, qısa vaxt ərzində yüzlərcə gəncin kənd təsərrüfatı sahəsində biznes yaratmaq arzusunda olduğunu bildirib. Nazir müavini gənclərin uğurlu biznes yaratması işinə hər cür dəstək göstəriləcəyini söyləyib.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev AMAL layihəsinin gənclərin məşğulluq problemlərinin həllində əhəmiyyət kəsb etdiyini deyib və layihə çərçivəsində öz bizneslərini quran gənc "AMAL"çılara uğurlar arzulayıb.

Milli Məclisin deputatı Müşfiq Cəfərov AMAL layihəsi çərçivəsində görülən işləri yüksək qiymətləndirib və bu istiqamətdə həyata keçirilən bütün ideyalara dəstək olmağın zəruriliyini vurğulayıb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev kənd təsərrüfatının iqtisadiyyatın prioritet istiqamətlərindən olduğunu və gənclər arasında bu sahəyə olan marağın gündən-günə artdığını deyib. O, həyata keçirilən layihənin kənd yerlərində gənclər arasında işsizliyin aradan qaldırılmasında mühüm rol oynayacağını qeyd edib.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Seymur Mövlayev bildirib ki, layihə ölkədə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə, aqrar sektorda onların iştirak səviyyəsinin artmasına, yeni nəsil fermerlərin formalaşmasına, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqətin artırılmasında önəmli töhfələr verir.

Görüşdə AMAl layihəsindən yararlanaraq kənd təsərrüfatı sahəsində uğurlu biznes qurmuş fermerlər öz təcrübələrini bölüşüb, gənclərə müvafiq tövsiyələr veriblər.



# Vətən borcunu qaytarır

## Şəhid ailələri və qazilər dövlətin hər cür dəstəyi ilə əhatə olunublar

44 günlük Vətən müharibəsində zəfər çalan Azərbaycan əsgəri bu gün hamımızın başının tacı və qürur mənbəyidir. Onun göstərdiyi misilsiz qəhrəmanlıq nümunəsi, cəsurluğu və ölümün gözünün içinə dik baxaraq düşmən üstünə şığıması Silahlı Qüvvələrimizi dünyanın ən döyüşkən orduları səviyyəsinə qaldırdı.

Ali Baş Komandan İlham Əliyevin qısa müddət ərzində ordu quruculuğunda apardığı dərin və geniş islahatlar, yeni qoşun növlərinin yaradılması, tamamilə yeni müharibə taktika və strategiyalarının işlənilib tətbiq edilməsi gücümüzü birə yüz artırdı. 44 günlük müharibədə bütün əməliyyatlara fərdi yanaşmaların və düşmənin ağlına gəlməyən hərbi innovasiyaların tətbiqi bütün dünyada qalib Azərbaycan Ordusuna qeyri-adi şöhrət gətirdi. Hətta düşmənin özü belə gördüklərindən vahiməyə gəldiyini etiraf etməyə məcbur oldu.

Bu səbəbdən hər birimiz ordumuzla öyünürük, qürurlanırıq, fəxr edirik. Hər şəhid əsgər, hər qazı bizə doğma övladımız qədər yaxın, əziz və doğmadır, onların ağrıları ağrımız, itkiləri itkimizdir. Dövlət başçısı özü dəfələrlə Azərbaycan əsgəri haqqında ən xoş sözləri deyib, hərbi hospitallarda, işğaldan azad edilmiş ərazilərdə onlarla görüşüb, güzəranlarına və sosial rifahlarına təsir edən çoxsaylı fərman və sərəncamlar imzalayıb.

Bu gün Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsinə xüsusi qayğıkeşlik və həssaslıqla yanaşılır. Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada qazilərin əlilliyinin qiymətləndirilməsi işləri operativ şəkildə yerinə yetirilir. Bunun sayəsində indiyəcən Vətən müharibəsinin artıq 2200 qazisinə ölkəmizin ərazi bütövlyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılmış və dərhal sonra proaktiv qaydada e-sistem üzərindən onlara müvafiq sosial ödənişlər təyin edilmişdir.

Əlilliyi olan şəxslərin, o cümlədən müharibə əlillərinin pensiya və müavinətlərinə, təqaüdlərinə mütəmadi olaraq yenidən baxılır. Təkcə son üç ildə həmin ödənişlər orta hesabla 2 dəfə artırılmışdır. Eyni zamanda Prezidentin aylıq təqaüdü Milli Qəhrəmanlarımız üçün 1500 manatdan 1800, Böyük Vətən müharibəsi iştirakçıları üçün 150 manatdan 300 manata çatdırılmışdır. "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslər üçün isə 2000 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis olunmuşdur.

Bundan başqa, şəhid ailələri ilə bərabər, müharibə əlillərinin də mənzil və fərdi evlə təminatı həyata keçirilir. İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 11 mindən çox mənzil və ya fərdi ev verilmişdir. Dövlət başçısının bu ilin əvvəlində imzaladığı sərəncamla isə qarşıdakı beş ildə daha 11 min mənzil və fərdi ev verilməsi nəzərdə tutulmuşdur. Başqa fakt: yalnız bu il paylanılacaq evlərin sayı 2018-ci ildəkindən 5 dəfə çoxdur.

Amma bunlar da hamısı deyil. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 7615 nəfər əlilliyi olan şəxs protez-ortopedik və digər reabilitasiya vasitələri, o cümlədən 908 mühərrikli təkərli oturacaqla təmin edilmişdir. Son iki ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir avanadlıqlarla təchiz edilərək istifadəyə verilmişdir Bu reabilitasiya müəssisələrində 2021-ci ilin 10 ayında əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 6450 nəfərə reabilitasiya xidmətləri, həmçinin Vətən müharibəsinin 1040 nəfər qazisinə sosial-psixoloji dəstək xidmətləri göstərilmişdir. Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi isə protezlə təmin edilmişdir.

Birinci Qarabağ müharibəsi iştirakçılarının da təkrar qiymətləndirmə zamanı böyük qisminin əlillik müddəti uzadılmışdır. Yeri gəlmişkən, qeyd edək ki, hərbi səbəblərlə əlaqədar əlilliyin qiymətləndirilməsi üçün əyani müayinələr aidiyyəti qurumların və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə və videoçəkilişlər aparılmaqla keçirilir. Ötən illərdə hərbi səbəblərlə əlaqədar təyin olunmuş əlillik müddəti bitən və həmin müddətin uzadılması üçün barələrində e-sistemə göndəriş daxil edilmiş şəxslərin sağlamlıq vəziyyətinə onların özlərinin iştirakı ilə əyani baxış keçirilir və bunun əsasında qərarlar qəbul olunur.

Təəssüf ki, bütün bunların fonunda son günlər sosial şəbəkələrdə biz bəzi müharibə iştirakçılarının yoxlanılmamış şikayətlərinin kütləvi tirajlanmasını görürük. Lakin araşdıranda məlum olur ki, reallıqlar üzdə görünənlərdən fərqlidir. Bu bir həqiqətdir ki, müharibədə iştirak edən bütün hərbçilərin şüurlarında ciddi dəyişiklər baş verir. "Vyetnam sindromu", "Əfqan sindromu" və "Kombatant sindromu" müharibələrdə iştirak edən əsgərlərin əsəblərinin yerində olmadığını göstərir. Yaxşı yadamdadır, 1992-ci ildə bizim əsgərlərimiz Ağdərəni azad edəndən sonra gecə biz "vışka" deyilən yerdə artilleriyaçıların yanında gecələdik. Şəhər alınmışdı, ətrafa sakitlik çökmüşdü, amma bu zaman döyüşçülərdən biri avtomatını əlinə alıb qaranlığın içində əridi. Bir neçə dəqiqədən sonra atəş səsi gəldi. Əsgərimiz qayıdanda dedi: "Atmasaydım, beynim deşiləcəkdi. Darağı boşaltdım ruhum toxdadı".

Amerikalı tədqiqatçılar İraqdan və Əfqanıstandan qayıdan əsgərlərin sağlamlığını araşdıranda döyüşçülərin 50 faizinin aldıqları zədələrdən yaranan streslərdən əziyyət çəkdiklərini aydınlaşdırmışdır. "Qazeta.ru"nun elm şöbəsi isə Suriyada, Çeçenistanda və Əfqanıstanda döyüşən əsgərlərin tən yarısının postravma streslərindən əziyyət çəkdiklərini, müharibələrin bütün iştirakçıların beynində və həyatında ağır iz buraxdığını aydılaşdırmışdır.

Belə vəziyyətlərdən çıxmaq üçün veteranlara həyatı boyu dəstək lazımdır. Çünki onlar özlərini həmişə döyüşdə keçirdikləri məhrumiyyətlərə və çətinliklərə bərabər tutur, çox vaxt özlərinə qapanır, az danışır və yaşadıqları sarsıntıları xatırlamaq istəmirlər. Bu cür veteranları qəzəbləndirmək, hövsələdən çıxarmaq asandır. Ona görə də onları anlamaq, olduqları kimi qəbul etmək lazımdır, hətta haqsız olsalar belə... Çox müsbət haldır ki, adıçəkilən komissiya və nazirlik məhz bu cür edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

**Dünya olduğu kimi**

# 5 əsrdən çox yaşı olan tütün

**Kənd təsərrüfatı, ticarət və sənaye sahəsində 500 ildən çox müddət ərzində mövcud olan tütünün Asiya və ya Amerika mənşəli olması tam olaraq bəlli deyil. Amma bilinən odur ki, tütün Amerikadan Avropaya səyahətçi Kristofor Kolumb və onun dostlarına məxsus gəmilərlə gətirilib.**



1492-ci ildə San-Salvadorda ilk dəfə tütün və tütün yarpaqlarının çubuqlarla çəkildiyini və ağızda çeynəndiyini görən Kolumbun yerli əhalinin çəkdiyi qamış "tütəy"ə tütün adı verdiyi qeyd edilir. Tütünün ilk istifadəsi qurudulmuş yarpaqların əzilərək borunun bir ucunda yandırılması və tüstünün "tütün"ün digər ucundan ciyərə qəbul edilməsi şəklində olub. Mərkəzi Amerikada yaşayan xalqlar arasında kefləndirmə məqsədilə geniş istifadə edilən tütün Amerikaya yolu düşən dənizçiləri də özünə aludə edib. İlk siqaret çəkən avropalının Kolumbun "Santa-Mariya" gəmisində zabit işləyən Rodriqo de Xeres olduğu bildirilir. O, Amerikadan İspaniyaya qayıdan zaman özü ilə gətirdiyi tütün yarpaqlarını çəkərkən ağzından tüstü çıxdığı üçün qonşuları onu sehrbazlıqda və şeytançılıqda günahlandırıblar. Bu səbəbdən mühakimə edilən Xeresə kilsə məhkəməsi 1505-ci ildə 7 il həbs cəzasi verib. Bu avropalı həbsdən çıxarkən artıq Portuqaliyada siqaret çəkmə leqallaşmış və əhalinin yarısı tütün çəkirmiş.

İlkin dövrlərdə tütündən istifadə ilə bağlı böyük qadağalar tətbiq edilirdi. 1575-ci ildə ispan və Amerika kilsələrində tütündən istifadə qadağan edilib. 1603-cü ildə İngiltərə kralı I Ceyms tütündən istifadənin dinə qarşı olduğunu və insanların ruhunu məhv etdiyini iddia edərək ondan istifadəyə qadağa qoyub və tütünü istehlak üçün İngiltərəyə gətirən şair, yazıçı Valter Raleighi öldürtdürüb. 1634-cü ildə Rusiya çarı I Aleksey dinin tütündən istifadəyə icazə vermədiyini iddia edərək onu qadağan edir, tütün çəkərkən ilk dəfə tutulanların burunlarını kəsdirir, bu halı təkrarlayanları daha sonra qətlə yetirirdi. Səfəvi şahı I Abbasın hakimiyyəti dövründə siqaret çəkənlərin üst dodağı və başı kəsilirdi.

Tanınmış alman səyyahı, coğrafiyaşünas alim Adam Olearinin sözlərinə görə, Səfəvilərin Osmanlılar üzərində qələbəsindən sonra Şah Abbas orduya birillik məvacibin ödənilməsini əmr edib. Ancaq tezliklə qulağına xəbər çatıb ki, əsgərlər məvacibi dolanışıqlarına xərcləmək əvəzinə tütün almağa başlayıblar. Bundan çox qəzəblənən şah bir dəstə yaradaraq orduda tütün və tənbəkinin istifadəsinə qoyulan qadağanın icrasını sərtləşdirir. Bu, tarixdə ilk antitütün kampaniyası idi. I Şah Abbasın ölümünə qədər tütün idxalı qadağan idi və günahkarlar ağır cəzalandırılırdı.

Tütünün istifadəsi ilə bağlı sərt qadağaların olmasına baxmayaraq, maraqlı ziddiyyətlər də olub. Tütün haqqında ilk məlumatı yazan yepiskop Romano Pane 1518-ci ildə gətirdiyi tütün toxumlarını İspaniya kralı Çarlza hədiyyə edib. 1559-cu ildə Fransanın Portuqaliyadakı səfiri Jan Nikot onun öskürək, astma, başağrısı, mədə xəstəlikləri və qadın xəstəlikləri üçün yararlı olduğunu qeyd edib və tütünü fransız kraliçasına hədiyyə edib. Bu səbəbdən tütünə "Kraliça otu" və ya "Səfir otu" da deyiblər.

## Dünyanın ən uzun siqareti



Dünyanın ən uzun siqareti 2016-cı ildə kubalı siqaret istehsalçısı olan Xose Kastelar tərəfindən hazırlanıb. Daha əvvəl beş dəfə dünya rekordu qazanmış Xose bu siqareti Kuba lideri olmuş Fidel Kastronın yubileyi münasibətilə hazırlayıb.

Dünyanın ən uzun siqaretinin uzunluğu 90 metr olub. Siqaret bir neçə insanın köməyi ilə 10 günə yuvarlanıb. Xose özünün bu şah əsəri ilə əvvəlki təxminən 82 metrlik siqaret rekordunu geridə qoyub. İstehşalçı "Dünyada ən yaxşı tütün Kubadadır, məncə, ən böyük siqaret rekordu da Kubada olmalıdır" deyib.

## Ən çox tütün istehsal edənlər

**Dünyada 100-ə yaxın ölkə tütün istehsal edir, lakin əsas istehsalçılar Çin, Hindistan, Braziliya, ABŞ, Türkiyə, Zimbabve və Malavidir. Adları çəkilən ölkələr birlikdə dünya tütününün 80 faizindən çoxunu istehsal edir.**

Azərbaycanda tütünçülüyün inkişafı XX əsrin 70-ci illərinin başlanğıcına təsadüf edir. 1970-1980-ci illərdə tütünün əkin sahəsi 17 min hektar, istehsalının həcmi isə 60 min tondan çox olub. Lakin son 10 ildə tütünçülükdə tənəzzül müşahidə edilib. Belə ki, 2016-cı ildə tütünün əkin sahəsi 2,4 min hektar, istehsal həcmi 3,6 min ton təşkil edib ki, bu da potensial imkanlardan xeyli aşağıdır. Ölkənin dağlıq və dağətəyi rayonlarının torpaq-iqlim şəraiti beynəlxalq standartlara cavab verən keyfiyyətli tütünün yetişdirilməsinə və ildə 50-60 min ton tütün istehsalına imkan verir. Tütün Azərbaycanın 12 rayonunda və Naxçıvan Muxtar Respublikasında əkilir. Əkin sahələrinin yarıdan çoxu ənənəvi tütünçülük bölgələrindən olan Şəki, Qax və Oğuz rayonlarının payına düşür.



## Siqaretə ən çox pul xərcləyənlər



Ölkələr arasında siqaret çəkməyə görə ən çox pul ödəyənlər Avstraliya sakinləridir. Burada bir qutu siqaret 26 ABŞ dolları dəyərindədir.

2021-ci ildə "Marlboro" 35 milyard ABŞ dollarından çox marka dəyəri ilə dünyanın ən qiymətli tütün markası olub. İkinci yerdə olan "Pall Mall"un brend dəyəri 7 milyard ABŞ dollarından bir qədər çoxdur.

Bütün dünya ölkələrinin tütün çəkənləri ildə siqaretə 100 milyard ABŞ dolları xərcləyirlər. Dünyada 1 milyard siqaret çəkənin 80 faizi gəlirləri aşağı və orta səviyyədə olan ölkələrdə yaşayır.

## Ən çox siqaret çəkənlər

**Çin siqaret sənayesində liderdir. 2014-cü ildə Çin dünyada siqaretin 30 faizdən çoxunu istehsal və istehlak edib. Çin həm də kişi-qadın arasında siqaret çəkmə nisbətinin ən yüksək olduğu ölkələrdən biridir. Burada kişilərin 74 faizi, qadınların 8 faizi siqaret çəkir. Çindən sonra siqareti ən çox istehlak edən ölkə Hindistandır.**



2019-cu ildə Amerika hinduları arasında siqaret çəkmə ən yüksək həddə çatıb. Amerika hindularının təxminən 30 faizi həmin il siqaret çəkib. Bununla belə, son bir neçə onillikdə ABŞ-da siqaret çəkənlərin sayı azalıb. 2000-2018-ci illərdə burada siqaret çəkənlərin sayı demək olar ki, on faiz azalıb.

2019-cu ildə aparılmış ev təsərrüfatları tədqiqatının məlumatlarına əsasən, Azərbaycanda 15-19 yaşlı əhalinin 0,2 faizi, 20-44 yaşlı əhalinin 13,6 faizi, 45-64 yaşlı əhalinin 21,5 faizi siqaret çəkir. Siqaret çəkənlərin 13,2 faizinin yaşı 65-dən çoxdur. Əhalinin 5,3 faizi gündə 20 ədəddən çox siqaret çəkir.

## İlk siqaret hazırlayan maşın

**İlk dəfə siqaretin oxşarı Amerika hinduları tərəfindən düzəldilib. İlk siqaretlər 1844-cü ildə Fransada istehsal olunub. Həmin ildə İtaliyada hazırlanan kağız siqarlar böyük diqqət çəkib. 1880-ci ildə amerikalı ixtiraçı Ceyms Albert Bonsack ilk siqaret yuvarlayan maşın hazırlayaraq onu patentləşdirib.**



O vaxta qədər siqaretlər əllə yuvarlanırdı. Hazır siqaretlər lüks bir əşya olaraq getdikcə populyarlaşırdı. Yaxşı bir siqaret çarxı dəqiqədə orta hesabla yalnız dörd siqaret istehsal edə bilirdi. Lakin bu, 1870-ci illərdə tələbatı ödəmək üçün kifayət deyildi. 1875-ci ildə Virciniya ştatının Riçmond şəhərində yerləşən "Allen and Ginter" şirkəti siqaretləri yuvarlaya bilən daha müasir maşının ixtirasına görə 75 000 ABŞ dolları (indi 1.767.500 dollara bərabərdir) mükafat təklif etdi. Bonsack bu mükafatı əldə etməkdən ötrü vaxtını həmin maşının yaradılmasına həsr etdi. Bonsackın ixtirası siqaret sənayesində inqilab oldu. Kibritin ixtirası ilə isə siqaret istehlakında partlayış baş verdi.

## 700 milyondan çox uşaq tütün tüstüsü ilə nəfəs alır

**Tütün məhsullarının yanması nəticəsində ətraf mühitə yayılan tüstü ikincili tütün tüstüsü kimi tanınır. Qapalı şəraitdə tütün tüstüsü hər tərəfə yayılır və onun zərərli təsirinə həm siqaret çəkənlər, həm də çəkməyənlər məruz qalırlar. Bu adətən passiv siqaretçəkmə adlandırılır.**



Müəyyən olunub ki, tütün tüstüsündə insanın orqanizminə zərərli təsir göstərən 4000 zərərli kimyəvi maddə (qətran, mürəkkəb kimyəvi maddələr, aromatizatorlar və s.) var. Normal bir siqaretdə 20 milliqram nikotin var. Nikotin tütün yarpaqlarında rast gəlinən alkaloidlərdən ən əhəmiyyətlisidir. Tütünün toxum və yarpaqlarındakı nikotinin miqdarı 2-12 faizə qədərdir. Nikotinin siqaret tüstüsü ilə ağciyərlərə çatması üçün cəmi 8 saniyə lazımdır. O, ağciyərlərdən qana qarışır. Tütün tüstüsündə olan nikotin və qarmin kimi psixoaktiv maddələr mərkəzi sinir sistemini stimulyasiya edərək insanda eyforiya hissi yaradır. Bununla da o, müvəqqəti olaraq yorğunluğu, yuxululuğu, əzginliyi aradan qaldırmaqla insanda iş qabiliyyətinin və yaddaşın yüksəlməsi effektinin yaranmasına səbəb olur. Passiv tütünçəkmə böyüklərdə bir çox ürək-damar və nəfəs yolları xəstəliklərinin yaranmasına səbəb olur və bu da sonda ölümə gətirib çıxara bilir.

Hesablamalara əsasən, dünyada 700 milyon uşaq havada olan ikincili tütün tüstüsü ilə nəfəs alır. Bu da uşaqlarda bir çox ciddi xəstəliklərin yaranmasına və artıq mövcud olan xəstəliklərin (məsələn, astmanın) ağırlaşmasına gətirib çıxarır.

Beynəlxalq Əmək Təşkilatının məlumatlarına əsasən, işləyən insanların hər il ən azı 200 000-i iş yerlərində məruz qaldıqları tütün tüstüsünün (ikincili) təsiri nəticəsində dünyasını dəyişir.

## Müharibələr tütünçəkmənin yayılmasına səbəb olub



Müharibədə tütündən istifadənin artması və müharibədən sonra ölkələrinə qayıdan əsgərlərin bu vərdişləri özləri ilə aparıb orada davam etdirmələri siqaretdən istifadənin daha geniş yayılmasına səbəb oldu. 1856-cı ildə Krım müharibəsi zamanı qəzetə bükülmüş və çəkilmiş tütün türk, ingilis, fransız və yerli əsgərlər arasında məşhur idi.

1914-cü ildə Birinci Dünya müharibəsinin başlaması ilə tütünlə bağlı qadağaların qoyulması dayandırıldı. Cəbhədəki əsgər anbarlarına tütün əlavə edildi, çox ehtiyac duyulan tütünün cəbhəyə çatdırılması səyləri ön plana çıxdı. İkinci Dünya müharibəsi dövründə isə cəbhə üçün silah və sursatla yanaşı, siqaretə də tələbat artdı və dünyada yetkin əhalinin təxminən 60-80 faizi siqaret aludəçisi oldu.

## Eyni anda 159 siqaret çəkib



Dünyada eyni anda ən çox siqaret çəkən şəxs Jim Mouth Purol adlı şəxs olub. O, 2003-cü ildə televiziyada canlı yayımda olarkən 159 siqareti bir anda ağzına yerləşdirərək beş dəqiqə ərzində onların hamısını çəkməyi bacarıb.

Purol bununla da dünya rekordunu edib. Qəribədir ki, Jim Mouth heç zaman siqaret çəkən olmayıb. O, siqaretdən başqa rekordlara da sahibdir.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*



**Sağlıq olsun**

# Ölüm dumanı

**"Bu zəhərli bitki köhnə məktəb müəllimləri tərəfindən dərman kimi geniş istifadə olunurdu və nəticədə minlərlə insan ölürdü. Bu təhlükəli maddəni istədiyiniz qədər istifadə edə bilərsiniz, amma bilməlisiniz ki, istifadə etdiyiniz tütünün miqdarına uyğun olaraq həyat enerjiniz də azalacaq…"**

Amerikalı təbiətşünas və botanika təbabəti üzrə mütəxəssis Gideon Linsesum hələ 19-cu əsrin əvvəllərində tütün haqqında yazırdı bunları...

1880-ci illərdə Amerikanın cənubunda avtomatik siqaret hazırlayan maşının ixtirası ucuz qiymətə kütləvi siqaret istehsal etməyə imkan verdi. Bundan sonra insanlar arasında siqaret çəkmək daha da yayılaraq, adi hala çevrildi. Elə həmin dövrlərdən tütündən istifadəni zərərli hesab edən insanlar onun qadağan edilməsi ilə bağlı hərəkata başladılar. Hazırda tütünün satışı və istifadəsinə bəzi qadağalar qoyulub.

1912-ci ildə amerikalı həkim İsaak Adler ağciyər xərçənginin siqaretlə əlaqəli olduğunu ilk dəfə irəli sürdü.

O dövrlərdə siqaretin təhlükəsi ilə bağlı mətbuatda yer alan yazılarda bildirilirdi ki, Birinci Dünya müharibəsindən əvvəl ağciyər xərçəngi əksər həkimlərin karyeralarında heç vaxt görməyəcəyi nadir bir xəstəlik hesab olunurdu. Lakin müharibədən sonra siqaretin populyarlığının artması ilə ağciyər xərçəngi epidemiya şəklində ortaya çıxdı.

1970-ci ildə Ümumdünya Səhiyyə Assambleyası ağciyər və ürək-damar xəstəliklərinin inkişafına, həmçinin bronxial xərçəng, xroniki bronxit, emfizema və bir çox xəstəliklərə səbəb olan siqaretçəkmənin ciddiliyini dərk edərək dünyanın bütün səhiyyə orqanlarına müraciət etmiş, problemə qarşı lazımi tədbirlərin görülməsinin vacibliyini bildirmişdi. Həmin dövrdən başlayaraq dünyanın bir çox ölkəsində siqaretə qarşı təbliğat kampaniyaları başlamış və bu kampaniyalar bu gün də davam etdirilməkdədir.

### *Qarşısı alına bilən ölümün yeganə ən böyük səbəbi*

Tütündən istifadə hazırda qlobal miqyasda qarşısı alına bilən ölümün yeganə ən böyük səbəbidir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə hər il dünyada təxminən 5 milyondan artıq insan tütün çəkməkdən, 600 min insan isə tütün çəkən insanların tüstüsünün təsirindən həyatlarını itirir.

Tədqiqatlarla müəyyənləşdirilib ki, siqaret tüstüsündə 4000-dək kimyəvi maddə var. Onların 250-si zərərli maddədir, 50-si isə konserogen (xərçəng törədən) maddələrdir.

Bunlardan karbon monooksid (rəngsiz, iysiz, dadsız zəhərləyici qaz), kadmium (batareyaların istehsalında istifadə olunur), polonium-210 (radioaktiv və çox zəhərlidir) arsenik (siçan zəhəri), DDT (böcək öldürücü zəhər), metanol (mərmi yanacağı), radon (radiasiya), butan (balon qaz), aseton (lak həll edici), naftalin (güvə qovucu) və s. zəhərli maddələri sadalamaq olar.



### *Siqaretə aludəçiliklə xərçəngin növləri arasında birbaşa əlaqə var*

Tütündən istifadənin zərərli yönlərindən biri də asılılıq yaratmasıdır. Siqaret aludəçiliyinin əsas səbəbi tütünün tərkibindəki nikotindir. Beyin nikotinə tez uyğunlaşır və hətta bir siqaret çəkdikdən sonra belə insanı yenidən nikotin qəbul etməyə sövq edir. Uzunmüddətli qəbul zamanı psixi, eyni zamanda fiziki aslılıq halı da törədə bilir. İnsanlarda nikotinə bağlılıq halının meydana çıxmasında əsas səbəb onun psixoaktiv təsiri və pozitiv reaksiyalar törətmək xüsusiyyətidir. Nikotin sinir sistemi vasitəsilə qan dövranı sisteminə təsir edir - ürək ritmini sürətləndirir, aritmiyalara və qan təzyiqinin yüksəlməsinə səbəb olur. Ürəyin işemik xəstəliyi (koronar) olanlarda taxikardiya, kəskin ürək çatışmazlığı və infarkta gətirib çıxarır.

Tütün məhsulu kimi insan orqanizminə ən çox zərəri olan siqaret xərçəng, ürək və ağciyər xəstəlikləri başda olmaqla bir çox sağlamlıq problemlərinin yaranmasının əsas səbəblərindən biridir. Siqaretlə birbaşa əlaqəli olan ağciyər xərçəngi xərçənglə əlaqəli ölüm nisbətlərində birinci yerdə durur. Siqaret tənəffüs yollarını əhatə edən qoruyucu quruluşu və hüceyrələri pozaraq ağciyərlərin hər cür zərərə qarşı həssas olmasına səbəb olur.

Tibb elmi sübut edir ki, siqaretə aludəçiliklə xərçəngin bir çox növləri arasında birbaşa əlaqə var. Bu təhlükəli vasitə qırtlaq, prostat, diş əti, ağız, sidik kisəsi, yemək borusu, dil, mədəaltı vəzi, badamcıq və uşaqlıq boynu xərçənglərinin, xüsusən də ağciyər asılılığının inkişaf riskini artırır.

Siqaret çəkmək xroniki bronxit və amfizem kimi tənəffüs sistemi xəstəliklərinin ən mühüm səbəbidir. Bu xəstəliklərdən həyatını itirənlərin nisbəti siqaret çəkməyənlərdən 40 dəfə çoxdur. Bundan əlavə, siqaret çəkmək qan dövranına və damarlara təsir etdiyinə görə serebrovaskulyar və insult riskini artırır.

Həmçinin iflic, xora, xroniki bronxit, ayaq damar xəstəlikləri, infarkt, qadınlarda sonsuzluq, kişilərdə isə KOAH (ağciyərlərin xroniki obstruktiv xəstəliyi) kimi xəstəliklər yaradır.

Siqaret çəkmək həm də hamilə qadınlarda uşaq itkisi, vaxtından əvvəl doğuş riskini artırır, körpələrin çəkisinin az olmasına səbəb olur və ani ölüm riskini 6 dəfə artırır. Eyni zamanda hamiləlik dövründə siqaret çəkən anaların körpələrində aşağı intellekt və davranış pozğunluqları da yarana bilir.

Mütəxəssislər bildirirlər ki, siqaretin ən böyük bəlalarından biri də onun passiv şəkildə yayılmasıdır. Bu mənfi haldan isə uşaqlar daha çox təsirlənirlər. Evdə tütün çəkmə uşaqların tənəffüs yolları xəstəliyi ilə bağlı xəstəxanaya müraciətlərini 5 faiz artırır.

Bu barədə Səhiyyə Nazirliyinin açıqladığı məlumatda bildirilir ki, tütün tüstüsünün hətta cüzi miqdarı belə orqanizm üçün zərərlidir.

Siqaret tüstüsündən ayrılan toksiki maddələr divan, pərdə, xalçaların səthinə, paltar və saçlara hopur. Azyaşlı uşaqlar oynadıqları, iməklədikləri zaman və ya siqaret çəkən insan tərəfindən qucağa alındıqda bu toksiki zərrəciklər onların orqanizminə daxil olur.

Tütün tüstüsünün 25 faizi siqaret çəkənin ağciyərlərinə daxil olur, 75 faizi isə atmosferi zəhərləyir. Bu zəhərli hava ilə nəfəs alan insan passiv və ya ikincili tütün çəkən hesab olunur. İkincili tütünçəkmə hər kəsə, xüsusilə uşaqlara mənfi təsir edir.

Məlumatlara görə, passiv siqaret istifadəsi, yəni siqaret tüstüsünə məruz qalma dünyada ildə 1, 2 milyon nəfərin ölüm səbəbidir. Hər il 8 milyon insan siqaret istifadəsinə bağlı səbəblərdən vəfat edir. Uşaq ölümlərinin 28 faizinin də siqaret tüstüsünə məruz qalmaqla bağlı olduğu bildirilir.

### Bilirik?

- 40 ildən çoxdur ki, siqaret qutularının üzərində sağlamlığa ziyanlı olduğu haqda xəbərdarlıq qeyd olunur;
- Avstraliyalı alimlərin tədqiqatlarına əsasən məlum olub ki, C vitamini siqaret çəkənlər üçün ziyanlıdır. Əslində insan orqanizmi üçün faydalı olan C vitamini siqaretlə birləşəndə çox pis nəticələrə səbəb olur;
- 5 siqaretin tərkibində insanı öldürmək gücündə olan nikotin miqdarı var;
- Daimi siqaret çəkmək dərinin quruluşunu pozur və qırışlara səbəb olur;
- İstehsalçılar vaxtaşırı olaraq siqaretin tərkibindəki Levulin turşusunun, ammiakın, teobrominin səviyyəsini artırır ki, bu da asılılıq səviyyəsini artırmağa xidmət edir;
- Orta hesabla siqaret çəkənlər ömürlərini 17 il qısaldır;
- Məşhur bir siqaret markasının reklamında çəkilən aktyorlar ciyər xərçəngindən ölmüşlər. Bu hadisələrdən sonra şirkətin reklamını xalq arasında "Kovboyların canisi" adlandırmışlar.

**Müalicə**

## Dərhal tərgidin

Dünyada tütün asılılığından müalicənin 120 növü var. (Onlardan 40-ı aktiv olaraq tətbiq edilir). Siqareti tərgitməyin ilk addımı qərar vermək



və iradəli olmaqdır. Ancaq uzun müddət davam edən bu asılılıqdan xilas olmaq üçün kömək almaq da lazım gəlir. Siqareti tərgitmə mərhələsində müxtəlif müalicə variantları mövcuddur. Dərman və əvəzedici müalicələr faydalı üsullar arasındadır. Ancaq bu müalicələr həkim nəzarəti altında aparılmalıdır. Əks halda nəzarətsiz istifadə sağlamlıq baxımından zərərli nəticələrə səbəb ola bilər.

Siqareti tərgitməyə başladığınız zaman daha çox maye için: su, şirə, limonlu açıq çay. Tünd çay və ya kofe içməyin. Acı və ədvalı yeməkləri də rasionunuzdan çıxarın. Çoxlu təzə tərəvəz və süd məhsulları yeyin. Fiziki gərginliyinizi artırın. İdman siqaretdən yayındırmaqla yanaşı həm də nəfəsi təmizləyir. Mümkün olduğu qədər tez-tez duş qəbul edin.

Mütəxəssislər siqareti tədricən atmağı məsləhət görmürlər. Bunu bir dəfə və həmişəlik etmək lazımdır. Ona görə də həlledici gün seçmək və qabaqcadan mənəvi olaraq özünü buna hazırlamaq lazımdır.

**Nəticə**

## Anbaan dəyişim

**Araşdırmalarla müəyyən edilib ki, siqareti tərgitdikdən sonra orqanizmdə sürətli müsbət dəyişikliklər baş verir:**

20 dəqiqədən sonra təzyiq və nəbz normallaşır, əl və ayaqda qanın dövranı yaxşılaşır;

8 saatdan sonra qanda oksigen səviyyəsi normallaşır və infarkt keçirmə riski azalır;

24 saatdan sonra orqanizm karbonmonoksiddən təmizlənir;

48 saatdan sonra qanda nikotinin səviyyəsi azalır, dad və qoxu hissi yüksəlir, mədə xorası xəstələrinin müalicəyə reaksiyası artır;

72 saatdan sonra tənəffüs yollarının rahatlanması nəticəsində tənəffüs normallaşır, tənəffüs yolları fəaliyyətə başladıqda ifrazatın miqdarı artır və tənəffüs yolları özlərini təmizləməyə çalışır. Enerji səviyyəsi artır;

2-12 həftədən sonra bütün bədəndə qan dövranı yaxşılaşır, tənəffüs yolları infeksiyası riski azalır, gəzinti zamanı yorğunluq az olur;

3-9 aydan sonra öskürək, qısa tənəffüs və xırıltı kimi tənəffüs yollarında olan problemlər aradan qalxır, ağciyər funksiyaları 5-10 faiz artır;



12 aydan sonra koroner ürək xəstəliyi riski iki dəfə azalır;

12-36 aydan sonra sidik kisəsi xərçəngi riski yüzdə 50 faiz azalır;

5 ildən sonra infarkt, qida borusu və ağız boşluğu xərçəngi riski yüzdə 50 faiz azalır.

10-15 ildən sonra infarkt keçirmə riski heç vaxt siqaret çəkməyənlərlə eyni səviyyəyə enir və siqaret çəkənlərlə müqayisədə ağciyər xərçəngi riski yüzdə 50 faiz azalır.

**Araşdırma**

## Gündə bir siqaret çəkmək də ölümə aparır



**Britaniya Tibbi Jurnalının (British Medical Journal) araşdırmasının nəticələri ortaya qoyub ki, insanlar ürək xəstəliyi və ya insult riskini əhəmiyyətli dərəcədə azaltmaq üçün çəkdikləri siqaretlərin miqdarını azaltmaq əvəzinə siqaretdən tamamilə imtina etməlidirlər. 141 ayrı elmi araşdırmanı nəzərdən keçirən alimlər bildiriblər ki, gündə bir dənə siqaret çəkənlərdə ürək xəstəliyi riski siqaret çəkməyənlərlə müqayisədə 50 faiz, insult riski isə 30 faiz daha yüksəkdir.**

Siqaret çəkməyin ən riskli ölümcül nəticəsi xərcəng yox, ürək-damar xəstəlikləridir. Bu, siqaret çəkməkdən nəticələnən erkən ölümlərin 48 faizini təşkil edir.

Alimlər deyirlər ki, gündə bir ədəd siqaret çəkən kişilərdə ürək-damar xəstəliklərinin yaranması riski siqaret çəkməyən kişilərlə müqayisədə 48, insult keçirməyin riski isə 25 faiz daha yüksəkdir.

Qadınlar üçün isə eyni halda ürək-damar xəstəliklərinin yaranma riski 57, insult riskinin isə 31 faiz daha yüksək olduğu qeyd edilir.

Tədqiqatçılar bildirirlər ki, ağciyər xərçəngində olduğu kimi, digər xəstəliklərin riskinin də çəkilən siqaretlərin miqdarına uyğun olaraq proporsional şəkildə azalması gözlənilsə də, nəticələr bunun doğru olmadığını göstərir.

Bir neçə il siqaret çəkmək ömür boyu ürək-damar xəstəliklərinin yaranması riskini kəskin şəkildə artıra bilər. Məlum olub ki, nikotinə asılılıq insanları siqaret çəkməyə davam etdirir, lakin əsas ziyanı vuran siqaret tüstüsündəki qətrandır.

Mütəxəssislər onu da vurğulayırlar ki, siqareti tamamilə buraxanlar tezliklə sağlamlıqlarını bərpa edib ürək xəstəlikləri riskini azalda bilərlər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləyir

Əvvəli 1-ci səh.

Bu xüsusda bütün dövlətlər, özəl şirkətlər və digər aktorlar COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret tədbirlər görməyə çağırılır.

BMT Baş Assambleyasının üçüncü komitəsində qəbul olunan qətnamə beynəlxalq ictimaiyyətin Azərbaycan Prezidenti İlham Əliyevin COVID-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizəsini və təşəbbüslərini dəstəklədiyinin nümunəsi olub.

Xatırladaq ki, Prezident İlham Əliyev hələ pandemiyaya qarşı mübarizənin ilk günlərindən "Biz birlikdə güclüyük!" çağırışını irəli sürüb. Bu çağırış 2020-ci ilin aprelində Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən Türk Şurasının koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü zamanı ilk dəfə qlobal çevrədə öz real ifadəsini tapıb. Türk Şurasının Zirvə Görüşündən sonra Azərbaycanın təşkilatçılığı ilə koronavirusla mübarizə üzrə beynəlxalq həmrəylik məqsədilə növbəti tədbir düzənlənib. Belə ki, ötən ilin mayında Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib. Həmin beynəlxalq tədbirdə Azərbaycan Prezidenti qlobal bəlaya çevrilmiş pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edib. Təklif Qoşulmama Hərəkatına üzv 120 ölkə arasında yekdilliklə qəbul olunub.

BMT baş katibi Antoniu Quterreşə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi üzv ölkələr adından ünvanladığı BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi də razılıqla qarşılandı. Azərbaycan Prezidentnin təşəbbüsü ilə BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası 2020-ci ilin iyulunda çağırıldı.

Həmin ilin 5 noyabrında BMT Baş Assambleyası öz plenar iclasında qətnaməni qəbul etdi. "Koronavirus xəstəliyi (COVID-19) pandemiyasına cavab olaraq Baş Assambleyanın xüsusi sessiyası" ilə bağlı qətnaməyə görə, Prezident İlham Əliyev tərəfindən Qoşulmama Hərəkatına üzv ölkələr adından irəli sürülən təşəbbüs əsasında ötən ilin dekabrında BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunan dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirildi.

Bu ilin mart ayında isə Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə yekdilliklə qəbul edildi.

Koronavirus pandemiyası qlobal təhlükəyə çevrilməyə başlayandan ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə sıx əməkdaşlıq edib. Təşkilat Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırıb. Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları göstərib, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq, 150 min doza vaksin təqdim edib.

Varlı və kasıb ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizə davamlı olaraq Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyevin gündəliyində olub, bu mövzuda müxtəlif tədbirlərdə çıxış edib, təşəbbüslər irəli sürüb.

2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə çıxış edən Prezident İlham Əliyev bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayıb. O, Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan edib.

Bu il noyabrın 18-də isə BMT Baş Assambleyasının üçüncü komitəsində sözügedən qətnamənin layihəsi müzakirəyə çıxarılıb və səsvermə ilə qəbul olunub. Qətnamənin əleyhinə heç bir ölkə səs verməyib. Qətnaməyə münasibətdə bitərəf qalmış 7 ölkədən biri isə regionda ən az peyvəndləmə səviyyəsinə malik Ermənistan olub. Azərbaycanın bütün məsələlərdə, hətta humanitar məsələlərdə də uğurlarını Ermənistan hər zaman olduğu kimi, bu dəfə də qısqanclıqla qarşılayıb.

Qeyd edək ki, qətnamə növbəti dəfə bu ilin dekabr ayında BMT Baş Assambleyasının plenar sessiyasında qəbul ediləcək.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*







# DSX-də milli-mənəvi dəyərlər mövzusunda seminar keçirilmişdir





Dövlət Sərhəd Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq noyabrın 19-da DSX-nin Sərhəd Nəzarətində "Milli dövlətçiliyimizin möhkəmləndirilməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda seminar keçirilmişdir.

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzinin verdiyi məlumata görə, seminarda iştirak edən hərbi qulluqçular və dəvət olunmuş qonaqlar öncə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən zəngin fotoekspozisiya ilə tanış olmuş və dahi öndərin əziz xatirəsini yad edərək büstü önünə gül dəstəsi düzmüşlər.

Dövlət himninin səsləndirilməsindən sonra Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək ölkəmizdə vətənpərvər və sağlam düşüncəli gənclərin yetişdirilməsi, onların Vətəninə məhəbbət, xalqının tarixinə, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyələndirilməsi, eləcə də dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv tədbirlər çərçivəsində bu fəaliyyətlərin əhəmiyyətini vurğulamış, DQİDK-nın mütəmadi olaraq müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq etdiyini, o cümlədən Silahlı Qüvvələrin birləşmələrində maarifləndirici tədbirlərin keçirildiyini bildirmişdir.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən "Dəmir yumruq" əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu qeyd etmiş, Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq qələbəsi ilə başa çatmış Vətən müharibəsində Azərbaycan sərhədçilərinin döyüş rəşadətini vurğulamışlar.

Seminarda dini radikallıq meyilləri, ölkəmizin tolerantlıq siyasətinə təhlükə yarada bilən təmayüllərlə mübarizədə hər bir vətəndaşın həssaslıq göstərməsinin vacibliyi qeyd olunmuşdur.

Tədbirin sonunda Vətən müharibəsinə həsr edilmiş "Dəmir yumruq" sənədli filmi nümayiş etdirilmişdir.

# Ənvər Paşa

## Ənvər Paşanın anadan olmasının 140 illiyinə ithaf olunur

*(romandan hissə)*



...İndiyədək çox sınaqlardan üzüağ çıxmışdı, indi isə - ömrünün sonlandığı məqamda uca Yaradanın qarşısında həyat imtahanı verirdi. Əlini qeyri-ixtiyari daim libasının sol döş cibində saxladığı kiçik həcmli, yanından heç ayırmadığı "Qurani-Kərim"in üzərinə qoydu. Qibləyə tərəf dönmək istəyirdi, yerində bir az çabaladı, az qaldı ağrıdan huşunu itirsin. Xeyli çalışıb-çabalayıb birtəhər də olsa, qiblə istiqamətinə dönməyi bacardı. Huşu üstündə idi, ancaq sanki dili söz tutmurdu. Ağır yaralanmışdı, ona elə gəlirdi ki, hamı hücumda onu ötüb irəli keçmiş, ondan uzaq düşmüşdü... "Kəlmeyi-şəhadət" gətirmək istədi, sinəsindəki və qarnındakı ağrılardan nəfəsi kəsilirdi, güllələr bədənini dəlik-deşik etmişdi. Bütün gücünü toplayıb "La ilahə illəllah, Muhəmmədən Rəsulullah" pıçıldadı... Qəlbi rahatlandı bir anlıq. Yaralı vücudu torpağa sərilmişdi; torpağın qoxusu lap burnunun dibində idi. Səmanın bir tərəfi bozarmışdı, elə torpağın rəngindən seçilmirdi, digər tərəfi isə açıq idi. Günəşin qarşısındakı ağ bulud topası isə şəklini dəyişərək cilddən-cildə girirdi...

Dərviş özü də gülləyə tuş gəlmişdi, yanı üstə çevrilməsinə, geniş sinəsindən, alnından al qanının axmasına baxmayaraq sahibini əzməsin deyə səndələyərək var gücü ilə kənara çəkilməyə cəhd edirdi...

...Yaralanmış atının üstündən aşıb Çeğan torpağına düşən Ənvər Paşanın son nəfəsində, dünyaya gözüylə baxdığında qısaca bir an kəsiyində, amma bir əbədiyyət qədər uzun sürən bir xəyal yolçuluğunda - ölümün qaşla göz arasında olduğu o məqamda ömür kitabının səhifələri yaddaşında vərəqləndi... Sadəcə vərəqlənməklə də qalmadı, adı düşməni lərzəyə salan, indisə bədəni torpağa düşən bu fədai paşa öz qısa, lakin sonralar kitablara sığmayacaq ömür anlarını sanki yenidən birər-birər yaşadı. Göz açıb qapayacaq qədər həmin qısa vaxt içindəcə, şəhidlik məqamına ucalmaqda olan paşanın həm şərəfli, həm də məhrumiyyət və ayrılıqlarla, ağrı və əzablarla, ani şirin dəqiqələrlə dolu həyatı xronoloji ardıcıllıqla deyil, pərakəndə zaman sayrışması ilə film kimi qırıq-qırıq, hissə-hissə, bəzən isə təfərrüatlı şəkildə gözləri önündən keçməyə başladı...

* * *

...Ayşə Dilara xanım sübhün alatoranında siması güclə seçilən oğlunu fəxr və sevgiylə süzdü, sonra yavaşdan tərpədərək "Ənvərciyim, qalx, sübh namazını qıl, sonra da imtahana gedəcəksən, övladım", - deyə həlim səslə çağırdı. Balaca Ənvər gözünü açıb əvvəlcə yuxunun verdiyi çaşqınlıqla anasını süzdü, sonra gülümsəyib yatağı boyu ləzzətlə gərnəşdi. "Tamam, anam, qalxıram indi", - deyə yenidən yorğana büründü. Ayşə Dilara xanım gülə-gülə dedi: "Bax, qalxmasan, Allaha dua edib istəməsən bu gün "Əsgəri-Rüşdiyə"yə qəbul etməzlər səni, haydı, qalx görüm..."

Anasının bu sözlərindən sonra səkkiz yaşlı İsmayıl Ənvər yorğanı üstündən atıb cəld yataqdan sıçradı. Anasından öyrəndiyi qaydada dəstəmaz alıb iki rükət sübh namazını qıldı. Namaz üstündə kiçicik əllərini Allaha açıb bugünkü imtahandan uğurla keçməsi, "Əsgəri-Rüşdiyə"yə qəbul olması üçün dua etdi.

...İmtahan gərgin keçirdi. Qəbul olmaq istəyən uşaqları sorğu-sual edən müəllimlər çox ciddi və tələbkar idilər. Ənvər həddindən artıq həyəcanlıydı, ancaq buna baxmayaraq məktəbə qəbul olunacağına inanır, ürəyində Allaha etdiyi duaları bir an belə kəsmirdi. Ənvərin sırası gəldikdə imtahanı götürən hər üç müəllim mütənasib görkəmli olsa da, bu boyca balaca, arıq oğlanı etinasız nəzərlə süzdü. Müəllimlərdən biri mülayim səslə "oğlum, sənin yaşın azdır, hələ balacasan, bir az böyü. İnşallah, gələcəkdə səni qəbul edərik", - deyə Ənvəri evə yollamaq istədi. Müəllimin həlim səslə dediyi bu sözləri rədd cavabı kimi başa düşən Ənvərin həyəcandan az qaldı nəfəsi kəsilsin, iri gözləri yaşla doldu, ancaq tez özünü ələ alıb qürurla şax dayandı: "Xocam, bu məktəbə daxil olub oxumaq, sonra da təhsilimi davam etdirib əsgər olmaq, Vətənimi qorumaq ən böyük arzumdur. Yaşım az olsa da, söz verirəm ki, əgər məni qəbul etsəniz, kimsədən geri qalmayacağam, dərslərimə yaxşı çalışacağam, ümidlərinizi doğruldacağam".

Hər üç müəllim vücudu cılız olmasına baxmayaraq mənən güclü görünən bu balaca, oxumaq üçün son dərəcə istəkli, həyəcanlı oğlanı, həm də bir-birilərini təbəssümlə süzdülər. Yumşaldılar, ona inandılar. Və beləliklə, taleyinə gələcəyin hərbiyyə naziri olmaq yazılmış İsmayıl Ənvər özündən yaşca böyük olan uşaqlarla bərabər həmin gündən "Əsgəri-Rüşdiyə"nin müdavimlərindən biri oldu...

...Evə az qala uça-uça qayıtdı, qapıdan girməmiş "Ana, ay ana, qəbul etdilər!" deyə sevinclə qışqırdı. Ayşə Dilara xanım oğlunu qucaqlayıb bağrına basdı, övladının həyəcanı anaya da sirayət etdi. Ənvəri öpüb "Təbrik edirəm, oğlum, Allah səni həmişə arzularına çatdırsın, Rəbbim səni uca bəndələrindən eləsin, heç vaxt yarıda buraxmasın, inşallah" deyə pıçıldadı...

...Məktəbin ağıllı şagirdlərindən hesab olunurdu, sakit və çalışqan olduğu üçün həm müəllimlərin, həm də tələbələrin sevimlisinə çevrilmişdi. Həm yaşca, həm də boyca sinif yoldaşlarından ən kiçiyi olduğu üçün qabaqda oturar, müəllimlərini ciddiyyətlə, diqqətlə dinləyərdi. Təkbaşına məktəbin bağçasında dolanmağı, dərslərinə də tək çalışıb hələ uşaqlıqdan öz düşüncə və fikirləri ilə tək qalmağı xoşlayardı.

...İndi ölümün bircə qarış yaxınında olduğu o məqamda Ənvər Paşa uzun illərin arxasında qalmış o xatirəni necə bu şəkildə canlı xatırladığına şaşırdı. Hər şey sanki dünən baş vermişdi. Hətta mehriban, gözəl anasının doğma qoxusu da lap yaxınında idi. Həsrətdən burnunun ucu göynədi, gözləri yaşla doldu. "Gözəl anam..." pıçıldadı...

* * *

Vaxtın-vədənin bu məqamında onun üçün təkcə keçmiş vardı... Bütün şüuru, hiss-duyğusu, alıb-verdiyi nəfəs də o keçmişin yanındaydı. O keçmiş haradasa bir az anlaşılmaz idi. Dəli-dolu gəncliyin ram olunmayan iddiaları, ötkəmliyi, tələskənliyi, səbirsizliyi və bu səbəbdən hər qədəmdə rast gəlinən qınaqlarla, suçlamalarla, aldanışla zəngin idi. Ancaq qürurludu. Çünki edilən nə vardısa, Vətən, millət, dövlət naminə edilmişdi. Qüsurlar vardısa, o da bu səbəbdən idi. Fikri, düşüncəsi keçmişlə nəfəs alsa da, o keçmişə dönmək, əl uzadıb xətalarını yerbəyer etmək mümkünsüz idi.

Ancaq indi bu keçmişin ən qiymətli anları ilə nəfəs almaq havasızlıqdan boğulan biri üçün nəfəsliyin açılması kimi idi. Xüsusilə sevgili Naciyəsi öz gözəl xəyalı, mehriban surəti ilə daim gözünün önündə, yaddaşının tam mərkəzində məskən salmışdı. Naciyəyə yazdığı məktubların qorunub gələcək üçün saxlanılmasını özü məktubunda belə rica etmişdisə də, bu qədərini güman etməzdi... Düşünməzdi ki, Naciyənin ən qiymətli yadigar olaraq saxladığı bu məktublar dönə-dönə çap ediləcək, incələnəcək... Sevənlərə, aşiqlərə bir vəfa, sədaqət örnəyi olacaqdır. Bəlkə də bir çox sənədlərdən də dəyərli idi bu məktublar. Paşa öz əlilə yazdığı, ürəyindəkiləri köçürdüyü, gizlətmədən, çəkinmədən sirr bildiyi bilgiləri, olayları bu məktublara etibar etmişdi: "Gözəlim Naciyəm! Ruhum, deyəsən əbədiyyətə yol alıram axı..."

...Güllələr qarın boşluğuna dolub sanki içəridə nə varsa, hər şeyi biçib tökmüşdü, dözülməz ağrıdan gözü yumulsa da, beyni özündən asılı olmadan xatirələrin şirinliyinə gömülür, o unudulmaz günlər film kimi gözlərinin önündən keçirdi...

Naciyənin parlaq çöhrəsi gəlib gözünün önündə dayanmışdı. Sevimli həyat yoldaşının iri, ala gözləri, qara qaşları, düzgün biçimli burnu, dolğun dodaqları, yumru, qəşəng çənəsi, ay parçası kimi gözəl və parlaq siması sanki lap bir addımlığında idi. Bu gözəl varlığa qovuşmaq üçün həsrət dolu illərini xərclədiyini, vüsal intizarı ilə hər an, hər dəqiqə onu düşündüyünü, ən qızğın döyüşlərdə belə onu ağlından çıxara bilmədiyini dərin hüznlə xatırladı. Qurumuş qanlı dodaqları az qala özündən asılı olmadan pıçıldadı: "Kaş ki, yanımda olsaydın, Sultanım, o gözəl qollarının üstündə can versəydim..."

Naciyə Sultanı hələ kiçik ikən əmisinin oğlu - hal-hazırda hakimiyyətdə olan sultan Əbdülhəmidin oğlu Əbdürrahim Əfəndi ilə nişanlamışdılar. Naciyə bu qərardan heç məmnun deyildi, çünki əmisinin oğlu ilə bir yerdə böyümüşdü, körpəlikdən bir yerdə gülüb-oynamış, uşaqlıqdan qardaş-bacı kimi günlərini bir yerdə keçirtmişdilər. Naciyənin Əbdürrahim Əfəndiyə başqa gözlə baxması mümkünsüz idi. Ancaq əmr yuxarıdan, dövlətin lap başından verilmişdi. Sultan Əbdülhəmidə kim etiraz edə bilərdi? Naciyənin istəsə də, istəməsə də, çarəsizcə bu nişanlanmaya razılıq verməkdən başqa çarəsi qalmamışdı.

Həmin vaxt Ənvər Paşa hələ Naciyə Sultanla tanış olmamışdı. Ənvər onda gənc olmasına baxmayaraq artıq orduda ad-san qazanmış bir hərbçi idi. Anası və yaxın qohumları da evlənmə yaşına gəldiyini deyib onu ailə qurmağa razı salmışdılar. Ənvər bəy Osmanlı sarayına kürəkən olmaq üçün ilk dəfə təşəbbüs göstərərək Sultan Əbdülhəmidin qızı Şadiyə Sultana elçi düşmüşdü, lakin istəyi rədd edilmişdi. Aradan bir az müddət keçəndən sonra Ənvər bəy Əbdülhəmidin digər qızı Refia Sultanla evlənmək istədiyini saraya açıqladı. Yenə də təklifini geri çevirdilər. Digər ittihadçı hərbçilərdən fəqrli olaraq Ənvər bəy dindardı, ibadət əhli idi, oruc-namazını axsatmazdı, içki içməzdi, dürüst, sözünün ağası və olduqca qürurlu bir hərbçi idi. Sultan Əbdülhəmidin üst-üstə iki dəfə onun evlilik təklifini rədd etməsi könlünə toxunmuş, qürurunu qırmışdı. O günlərdə sultan ailəsinə məxsus qızların şanlı-şövkətli sərkərdələrlə evləndirilməsi artıq ənənəyə çevrilməkdə idi. Sonra günün birində Ənvər bəyə Naciyə Sultan haqqında danışdılar. Ənvər bəy isə artıq Osmanlı sarayından qız almaq fikrini başından çıxarmışdı. Ancaq "İttihad və Tərəqqi"nin rəhbər şəxslərinin tövsiyəsi ilə Ənvər bəy Naciyə Sultanı istəmək qərarına gəldi.

Naciyə Sultan o ərəfələrdə formal şəkildə olsa da, Sultanın oğluna nişanlı idi. Ancaq bir məsələ vardı ki, Əbdülhəmidin oğlu da bir neçə saray əyanı ilə bərabər, həmin vaxt Şelanikə sürgünə göndərilmişdi, ona görə də Naciyə Sultanın nişanı faktiki olaraq pozulmuş sayılırdı. Naciyənin atası şahzadə Səlim Süleyman da əslində bu nişanın pozulmasını arzu edirdi. Bu əsnalarda Ənvər bəydən başqa bir neçə nəfər də Naciyə Sultana elçi düşmüşdü. Ancaq onların heç biri Naciyə Sultanı görməmişdi və sarayın qaydalarına əsasən hətta onun fotosu belə heç kimə göstərilməmişdi.

Naciyə Sultan ona elçi düşənlərin fotolarına baxaraq qismətini özü seçəcəkdi. Fotolar Naciyə Sultana gətiriləndə o cəsarəti və şöhrəti ilə orduda ad çıxaran gənc minbaşı Ənvər bəyi özünə həyat yoldaşı olaraq seçməyi qərara aldı. Naciyə özü bunu belə anladırdı: "Günlərin bir günü Ənvər bəyin məni Sultan Rəşaddan istəməsindən sonra anam otağa gəlib dedi ki, qızım, artıq böyümüsən, səninlə Əbdürrahim Əfəndidən başqa bir neçə nəfər də evlənmək istəyir. Bunların arasında Hürriyət Qəhrəmanı Ənvər bəy də var. Bu da sənə elçi düşənlərin rəsmləri və isimləri, bax, düşün və qərar ver!"

Gənc Naciyə fotosunu gördüyü Ənvər bəyin haqqında çox eşitmişdi. Dövrün həqiqi qəhrəmanı idi. Naciyə onun haqqında bütün yazılanları oxumuşdu. Amma tanıyanlar onun əsəbi, tündməcaz, bir az tərs, bir az inadkar olduğunu söyləmişdilər. Ancaq əlindəki şəkil Ənvərin incə ruhlu birisi olduğundan xəbər verirdi. Hələ Ənvər bəyin xəfif təbəssümlü baxışları. Dodaqlarının ucunda oynayan dadlı təbəssüm... Qarşısında çox nəcib, incəqəlbli, sevməyə, könül bağlamağa layiq, kövrək birisi dayanmışdı. İlk görüşün təəssüratı beləydi. Hər gün, hər saat əlindəki şəkillə baxışırdı...

Ənvər bəy üzünü heç görmədiyi Naciyə Sultanın onun evlilik təklifini qəbul etməsindən çox xoşbəxt olmuş, sevincindən özünə yer tapmamışdı. Amma bir yandan da qəlbində əndişəsi vardı. Təlaş içində idi ki, görəsən, Sultan Rəşadın istəyinə yox deyə bilməyən Naciyə Sultanın gözü-könlü keçmiş nişanlısında qalmayıb ki? Bu çalpaşıq düşüncələr ona rahatlıq vermir, qısqanclıq qəlbini gəmirir, şübhələr onu yeyib-bitirirdi. Onsuz da fitrətən qısqanc olması bir yandan, digər tərəfdən də qiyabi olaraq aşiq olduğu qadının duyğularını başqası ilə paylaşa bilməsi ehtimalı onu dəli edirdi. Şəkk-şübhə içində qıvrılmaqdansa, bunu məktub yazıb Naciyə Sultanın özündən soruşmaqdan başqa yolu qalmamışdı: "Sıxılmadan söyləyin. Bir-birimizə nikahlandıqdan sonra sizi əvvəlcə nişanlandığınız birini sevdiyinizi və onu uşaqlığınızdan bəri tanıdığınızı söylədilər. Öyrənmək istədiyim budur ki, bu insan hər kimdirsə onu gerçəkdən də sevdinizmi? Yoxsa mənimlə nikahlanmağı da sizə məcburən qəbul etdirdilər? Hələ də onu sevirsinizmi? Hiss etdiklərinizi iki sözlə anladın, mənim üçün kifayətdir. Sizi sevirəm. Fəqət əmin olun ki, o adamı hələ də sevirsinizsə və onu bəndənizə tərcih edirsinizsə, hər şeyi qurban verməyə hazıram ki, təki siz bəxtiyar və xoşbəxt olun. Sizin xoşbəxt olmağınız naminə mənim üçün çox qiymətli olan sizi belə unutmağa da hazıram. Mənə həqiqəti yazın..."

Uzun bir intizardan sonra nəhayət ki, cavab gəlmişdi, Naciyə Sultanın keçmiş nişanlısını heç sevmədiyini öyrənəndə qəlbindəki şübhələr ərimiş, az qala uşaq kimi sevinmişdi: "Ruhum, Oh! Məktubunuzu oxuduqca gözümdən yağış kimi yaşlar tökülür. Sizin o gözəl ruhunuzu sıxdım, rica edirəm, qüsurumu bağışlayın. Məktubumda da yazdığım kimi, sizi fövqəladə sevdiyimdən belə bir qabalığa yol verərək olan-olmaz şeyləri soruşdum".

Ənvər bəyin Naciyə Sultana olan sevgisi elə bir platonik eşq idi ki, kimə desəydin ki, zabitəli bir paşa heç üzünü görmədiyi qıza dəli-divanə kimi aşiq olub, bəlkə də heç kim inanmazdı. Özünün iştirakı olmadan nikahları kəsilmişdi. Nikahında vəkili Mahmud Şövkət Paşa olmuşdu.

Rəsmən evli olsalar da, aralarında yenə böyük maneələr var idi. Ənvər Paşa vəzifəsinin tələb etdiyi kimi daim İstanbuldan kənarda iş başında idi, vəzifəsini icra edirdi. Digər böyük bir əngəl isə Naciyə Sultanın anası Ayşə Tərzitər xanım idi. Naciyənin anası düşünürdü ki, xəyalpərəst, islaholunmaz bir idealist olan Ənvər Paşa günlərin bir günü ya orduda, ya da elə küçədəcə hansısa sərsərinin bir gülləsinə qurban gedəcək, ona görə də qızının gələcəyi naminə onu Ənvərdən uzaq tutmaq istəyirdi. Görünür, anası Naciyəyə onunla evlənmək istəyənlərin fotolarını verəndə qızının Ənvər Paşanı bəyənəcəyini düşünməmişdi. Onun fikrincə, üstəlik Ənvər qızı üçün xeyli yaşlı idi. Aralarında xeyli yaş fərqi vardı, nişanlananda Naciyənin on dörd, Ənvər bəyin iyirmi səkkiz yaşı tamam olmuşdu. Ayşə Tərzitər xanımın indi qismətə boyun əyməkdən başqa çarəsi qalmamışdı. Çünki bu xeyir işə pəl vurmaq Sultan Rəşada qarşı çıxmaq idi. Sultan Rəşadı hakimiyyətə gətirib taxta oturdan Ənvər Paşa deyildimi?! Keçmiş nişanın pozulması və Naciyəyə həyat yoldaşı olaraq Ənvərin namizədliyi onun istəyincə olmuşdu.

Bu işdə bir qəribəlik də vardı: əvvəlcə Osmanlı sarayından qız istəmək, Naciyəyə elçi düşmək siyasi evlilik məqsədi daşısa da, çox az zaman keçdikdən sonra Ənvər bəy üzünü belə görmədən ona dəlicəsinə aşiq olmuşdu. Naciyə Sultana yollayacağı ilk məktubla böyük bir sevginin bünövrəsi qoyulacaqdı, bir-birini sevən iki aşiq illərlə vüsal xəyalı ilə yaşayacaq, uzun müddət bir-birini gözləyərək ilk görüşməni xəyal edəcəkdilər: "Sultanım, Ruhum, uzun düşüncələrdən sonra nəhayət, ilk məktubumu yazıram. Qəlbim səbəbini anlaya bilmədiyim bir çox hisslərin təsiri altında titrəyir. Pak simanızı hələ ki, görmək şərəfinə nail olmamışam. Kim bilir, indiyə qədər bəndənizi necə təsəvvür edirsiniz? Hər halda hər şeyi gözə alaraq böyük bir hökuməti devirmək üçün üsyan edən bir hərbçi nəzərinizdə kim bilir bəlkə də sizə qarşı da qaba, xətrinizə dəyə biləcək birisidir. Fəqət, Ruhum, ilk baxışdaca bəndənizə qarşı burada təsadüf etdiklərimin dedikləri kimi siz də dərhal nə qədər müti, nə qədər sizi sevəcək, hər arzunuzu müqəddəs bir vəzifə bilən birisi olduğumu anlayacaqsınız. Nə olardı, bircə dəqiqəcik bir-birimizi görüb danışmış olsaydıq... O vaxt heç bu uzun sözlərə də lüzum qalmayacaqdı". Amma yenə təsəllisi də özündən gəlirdi: həyat təkcə ayrılıqdan ibarət deyil, görüşəcəyik hökmən, çox yaxında...

...Amma indi sonuncu ümidi də solub saralmaqda, səbri tükənməkdə idi. Günəş batırdı, qürubun rəngi narıncıya boyanırdı, uzaqlardan gələn səslər də kəsilmişdi. Bir savaşçı ömrünün qürubuna lap az müddət qalmışdı, qaş qaralırdı...

* * *

...Ənvər Paşa heç vaxt tarixi Azərbaycan torpaqlarında bir erməni dövlətinin qurulmasını istəmirdi. Hətta belə bir güzəştə getməyin necə böyük bir yanlış olduğunu Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti ilə növbəti görüşlərin birində dilə gətirmişdi:

- Azərbaycanın istiqlalı ilə bağlı böyük qayğılar içində olduğunuzun fərqindəyik. Biz hər zaman Azərbaycandakı qardaşlarımızın yanındayıq. Bilirsiniz, Qafqaz İslam Ordusu məhz buna görə yaradılıb. İnşallah, Allahın izni ilə Bakını da qurtaracağıq, din və qan qardaşlarımız da öz istiqlalına qovuşacaq. Ümidinizi itirməyin.

Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak işğalından azad etdiyini eşidəndə isə paşanın sevinci yerə-göyə sığmamışdı. Ənvər Paşanın Bakıda Nuri Paşaya ünvanladığı təbrik teleqramının mətnini isə İstanbulda da, Bakıda da demək olar ki, bilməyən qalmamışdı. Bu təbrikin hər bir sözü ürək titrədirdi: "Böyük Turan İmperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin azad edilməsi xəbərini ən böyük müsərrətlə qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpürəm, şəhidlərimizə "Fatihə"lər ithaf edirəm".

Cümlələrdən boy göstərən milli qürur, iftixar duyğularından hasil olan Turan düşüncəsi! Əslində, bu, adi bir teleqram yox, Ənvər Paşanın şahanə, romantik varlığının möhtəşəm sevgi məktubuna dönmüş rayihəsi, nəfəsiydi.

Beləliklə də, Qafqaz İslam Ordusunun əsas müəlliflərindən olan Ənvər Paşa hərbi və siyasi iradəsi, hələ üstəlik və ən vacibi, Turançı və "Quran"çı ovqatı ilə Bakını ermənilərdən təmizləmişdi. Müsəlman türklərin neft mənbəyi olan baş şəhərini fiziki cəhətdən xaçpərəst cəngindən xilas etməyin yolu Ənvər Paşanın sevdalı, coşqulu hərb romantikasından keçmişdi...

* * *

Yaxınlarda qardaşı Kamildən gələn bir məktub gözlərini yaşartmışdı, balaları gözündən uzaqda böyüyürdü: "Mahpeykər artıq böyük qız olub. Hər kəs onun gözəlliyinə, ağlına heyran qalır. Hər gün mütəmadi olaraq bir saat dərslə məşğul olur. Sizə də məktub yazır. Mürəbbiyəsinin oxuduğu nağılları dinləyir və başa düşür. Lazım gələndə təmiz alman dilində onları izah da edir.

Türkan da sanki bir mələkdir. Sakit, həlim xasiyyətli uşaqdır, kimsəni incitməz, xətrinə dəyməz. Gəzdiyini, getdiyini belə heç kim hiss etməz. Bacısından da gözəl qız olub. Ən çox sevdiyi məşğuliyyət isə qardaşı ilə oynamaqdır. O da bacısına bağlıdır, onu çox sevir. Saatlarla birlikdə oynayırlar. Üç gündən sonra Türkanın üç yaşı tamam olur.

Kiçik Əli bəyimiz isə hər şeydən öncə sizdən gözəl bir ad gözləyir. Sanıram, bu qədər gözəl, sevimli və şirin bir uşaq bütün dünyada tapılmaz. Öndən balaca ikinci dişi çıxır, dişləmədiyi, qoparmadığı şey qalmır..."

Əli oğlunun göbək adı idi, oğlu atasının ləqəbi olan, daha doğrusu, gizli fəaliyyətində rəsmən işlətdiyi bu adla böyüyürdü. Türkiyə Hərbi Məhkəməsi onu "hərbi cinayət"lərinə görə qiyabi ölüm cəzasına məhkum etdikdən sonra o da Tələt Paşa, Camal Paşa ilə birlikdə sualtı gəmi ilə Almaniyaya keçib bu ad altında orada yaşayırdı. Demək, oğlu onun həyatının bir parçasını - həm də qorxulu, ölüm-qalım anlarını öz adında əks etdirərək yaşayırdı. Bu məktubu aldığı günün gecəsi Ənvər Paşanın gözünə yuxu getməmişdi. Saatlarla xatirələrlə baş-başa gah oturmuş, gah qalxıb gəzinmiş, bəzən gözləri dolmuş halda körpə balalarını düşünmüşdü...

Ölümün pəncəsində fikirləşdi ki, indi Naciyəsinin cəmi iyirmi altı yaşı var, hələ gəncliyinin və gözəlliyinin ən çiçəklənən çağındadır. Qəlbi sıxıldı, həsrətdən az qaldı ürəyi dayansın, Naciyənin üzünü yada salmaq üçün son fotosunu xatırlamağa çalışdı. Qanaxmadan gözləri torlanmışdı, şiddətli ağrılar nəfəsini kəsirdi. Məktublarının birində Naciyə "İki gözüm Ənvərciyim, səni dörd gözlə gözləyirəm..." yazmışdı. Bəzən görüşəndə də "İki gözüm Ənvərciyim" deməsini xatırladı, bu vaxt onun göz bəbəklərinin necə sevinclə parıldaması, gözündən gülməsi yadına düşdü. Unudulmaz günlər idi... Gedə bilmədi. Daha heç gedə bilməyəcəkdi. İndi kəsilib qırılmaqda olan öz gənc ömründən çox bu saat Naciyənin həsrətinə, onun yola dikilən ala gözlərinə yanıb-yaxıldı. Ağrılar içində pıçıldadı: "Ənvərin sənə qurban olsun, Naciyəm... Unutma Ənvərini, heç unutma".

Naciyə Ənvərini heç unutmayacaqdı... Ancaq təkcə Naciyə Sultan yox, nə qədirbilən türküstanlılar, nə də əhdə vəfalı azərbaycanlılar Ənvər Paşanın xatirəsini heç unutmayacaqdılar...

**Hüseynbala MİRƏLƏMOV**

*Yanvar-sentyabr, 2021-ci il*
*Bakı-İstanbul*

## Sergey KOVALÇUK: "Azərbaycan irimiqyaslı idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməklə bağlı böyük təcrübəyə malikdir"

Bakıda batut gimnastikası üzrə dünya çempionatı yüksək səviyyədə təşkil olunub. Azərbaycan irimiqyaslı idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməklə bağlı böyük təcrübəyə malikdir. Bu təcrübə digər ölkələrə nümunədir.



AZƏRTAC xəbər verir ki, bunu Belarusun idman və turizm naziri Sergey Kovalçuk Bakıda təşkil olunan batut gimnastikası üzrə dünya çempionatı çərçivəsində noyabrın 20-də Milli Gimnastika Arenasında keçirilən mətbuat konfransında deyib.

Belaruslu nazir deyib ki, Azərbaycan ilk Avropa Oyunlarını möhtəşəm təşkil etməklə dünya idman tarixində yeni səhifə açdı. İkinci Avropa Oyunları isə Belarusda keçirildi və gərgin idman mübarizəsi ilə yadda qaldı. Bu uğurların qazanılmasında əsas səbəb Azərbaycanda güclü idman infrastrukturunun mövcudluğudur. Hazırda dünya çempionatının keçirildiyi Milli Gimnastika Arenası çox möhtəşəmdir. Gələcəkdə belaruslu gimnastların burada təlim-məşq toplanışında iştirak etməsi üçün həmkarım Fərid Qayıbov ilə müzakirələr aparmışıq.

Azərbaycan ilə Belarus arasında idman sahəsində mövcud əməkdaşlıqdan danışan S.Kovalçuk bildirib ki, Belarus qış idman növlərinin inkişaf etdirilməsində böyük təcrübəyə malikdir: "Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov ilə müzakirələrim zamanı gələcəkdə bu təcrübənin ölkənizdə tətbiqi barədə fikir mübadiləsi apardıq. Təbii ki, Azərbaycanın da təcrübəsindən yararlanacağıq. Bəzi idman növləri var ki, onlar ölkənizdə çox inkişaf edib. Qarşılıqlı əməkdaşlıq hər iki ölkədə idmanın inkişafına töhfə verəcək".

Adətən Olimpiya Oyunlarından sonra dünya çempionatında titullu idmançıların iştirak etmədiklərini vurğulayan nazir deyib: "Ancaq Bakıda təşkil olunan batut gimnastikası üzrə dünya çempionatında ən güclü və titullu idmançılar mübarizə aparırlar. Belarus idmançıları artıq Bakıda mükafatçılar sırasında yer alıblar. Ümumiyyətlə, Belarusda batut gimnastikası ilə bağlı böyük ənənə var. Belaruslu gimnastlar Olimpiya Oyunlarında dəfələrlə mükafatçılar sırasında yer alıblar".

Azərbaycanlı həmkarı F.Qayıbov ilə görüşün məhsuldar keçdiyini bildirən S.Kovalçuk ölkələrimiz arasında əməkdaşlığın perspektivləri və gələcək planlar barədə də müzakirələr aparıldığını vurğulayıb.

## Dünya çempionatında batut üzərində sinxron tullanış yarışlarının qalibləri müəyyənləşib

Bakıda keçirilən dünya çempionatında batut üzərində sinxron tullanış yarışlarının qalibləri müəyyənləşib.

AZƏRTAC xəbər verir ki, kişilərin yarışında belaruslu gimnastlar Andrey Builov və Oleq Rabtsov 52,930 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Almaniyalı cütlük Fabian Voqel və Mattias Pfleiderer 52,290 xalla yarışı ikinci, Fransa gimnastları Coşua Farux və Pyer Qouzou 52,050 xalla üçüncü olublar.

Qadınların mübarizəsində Çin idmançıları Yiçenq Hu və Sinsin Çjan 50,190 xalla qızıl medal qazanıblar. Yaponiyalı Narumi Tamura və Hikaru Mori 49,630 xalla gümüş, Portuqaliya təmsilçiləri Katarina Marianito Nunes və Beatris Martins 46,670 xalla bürünc medala sahib olublar.

Noyabrın 21-dək davam edəcək dünya çempionatında 33 ölkədən 300-dək gimnast iştirak edir.

## AZAL Moskvanın daha bir hava limanına uçuşlar yerinə yetirəcək

"Azərbaycan Hava Yolları" milli aviadaşıyıcısı dekabrın 1-dən etibarən Moskvanın "Vnukovo" (VKO) hava limanına xüsusi reyslər yerinə yetirməyə başlayacaq.




"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, həmin tarixdən həmçinin "Domodedovo" (DME) hava limanına reyslərin sayı artır. Hər iki hava limanına reyslər hər gün həyata keçiriləcək. Beləliklə, Bakıdan Rusiyanın paytaxtına reyslərin ümumi sayı həftədə 14-ə çatdırılacaq.

Aviabiletləri aviaşirkətin rəsmi **www.azal.az** saytında, həmçinin aviadaşıyıcının akkreditə olunmuş agentliklərində rəsmiləşdirmək mümkün olacaq.

Daşımaya yalnız COVID-19 pandemiyası səbəbindən tətbiq edilən epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Rusiyaya səfər etməyi planlaşdıran bütün sərnişinlərə uçuşdan əvvəl bu ölkə ərazisinə giriş zamanı tətbiq olunan qayda və məhdudiyyətlərlə tanış olmaları tövsiyə olunur. Müvafiq məlumat aviaşirkətin saytında dərc olunmuşdur: **https://www.azal.az/az/information/covid-russia**

Rusiyaya səfər edən bütün xarici vətəndaşlar "COVID-19 olmadan səyahət edirik" mobil əlavəsini smartfonlarına yükləməli və PCR-testinin nəticəsini həmin mobil əlavəyə daxil etməlidirlər.

Azərbaycana giriş qaydaları haqqında məlumatla burada tanış olmaq mümkündür: **https://www.azal.az/az/information/covid-azerbaijan**

Moskvadan Bakıya uçuş zamanı Azərbaycana giriş qaydaları ilə tanış olmaq və aviaşirkətin saytında **https://www.azal-.az/az/information/covid-azerbaijan** linki üzrə qeyd olunan klinika və ya laboratoriyalardan birində COVID-19 testindən keçmək zəruridir. PCR-testin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

## Ölkə ərazisində hava əsasən yağmursuz olacaq

Azərbaycanda noyabrın 21-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər saatlarında yarımadanın bəzi yerlərində zəif duman olacaq. Cənub küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-9°, gündüz 12-16° isti, Bakıda gecə 7-9°, gündüz 13-15° isti olacaq.

Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 21-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 12-17° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 6-11° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 13-18° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə havanın yağıntılı olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 11-16° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 5-10° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 12-17° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 12-15° isti, dağlarda gecə 1-4°, gündüz 5-8° isti olacağı gözlənilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## ANAMA-nın əməkdaşı və DSX-nin giziri tank əleyhinə minaya düşərək xəsarət alıblar

Noyabrın 19-u saat 15 radələrində partlamamış silah-sursatın axtarışı ilə bağlı Zəngilan rayonuna ezam olunmuş Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı, 1972-ci il təvəllüdlü Vaqif Babayevin və Dövlət Sərhəd Xidmətinin giziri 1999-cu il təvəllüdlü Renat Ağababayevin tank əleyhinə minaya düşmələri nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almaları barədə prokurorluğa məlumat verilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib və digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Qubadlı Hərbi Prokurorluğunda araşdırma aparılır.

## "Azercell" şəhid övladlarıyla yanaşı, şəhidlərin həyat yoldaşlarına da təhsil üçün təqaüd ayırdı

Fəaliyyətə başladığı gündən etibarən sosial layihələri ilə seçilən "Azercell Telekom" MMC 44 günlük Vətən müharibəsi dövründə canından keçən və böyük qəhrəmanlıq nümunəsi olan şəhidlərimizin ailələrinə dəstəyini davam etdirir.

10 ildən artıq müddətdir ki, "Azercell" şirkəti tərəfindən reallaşdırılan "Tələbə təqaüdü" proqramı çərçivəsində ötən il olduğu kimi, bu il də tələbə adını qazanmış şəhid övladlarına təqaüd təqdim olunur. Bununla yanaşı, şəhidlərin ali təhsil ocağına daxil olmuş həyat yoldaşları üçün də təhsil müddətinin sonunadək hər təhsil ayı üçün 300 manat məbləğində təqaüd ayrılıb. "Azercell Telekom" hər zaman qadınların cəmiyyətdə öz yerini tapmasına, peşəkar kadr kimi yetişməsinə xüsusi qayğı ilə yanaşır və bu təşəbbüslə onların inkişafına bir daha töhfə vermiş olur.

Qeyd edək ki, siyahılar "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən təqdim olunub.

Xatırladaq ki, ötən il 44 gün davam edən Vətən müharibəsi zamanı təhsilini yarımçıq qoyaraq, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş tələbələrin proqram çərçivəsində dəstəklənməsi və nəticədə "Azercell" tərəfindən Bakı ilə yanaşı, həm də bölgələrdəki müxtəlif ali təhsil ocaqlarının 23 tələbəsinə 200 manat məbləğində təqaüdün verilməsi qərara alınıb.

"Azercell" həm 44 günlük müharibə dövründə, həm də sonrakı müddətdə hər kəsə şərəf və ləyaqət nümunəsi olan şəhid və qazi ailələrini diqqət mərkəzində saxlayıb, xüsusi sosial layihələrin təşəbbüskarı və təşkilatçısı kimi çıxış edib. Şirkət tərəfindən şəhid ailəsi himayəyə götürülüb, Vətən müharibəsində şəhid olmuş və yaralanmış hərbçilərin faktura borcları ləğv edilib. Böyük amallar uğrunda canını fəda edən hərbçilərimizin övladları üçün "Böyük ürəklərdə kiçik xatirələr" layihəsi çərçivəsində psixoloji dəstək məqsədilə təlimlər təşkil edilib. Həmçinin balacaların öz qəhrəman ataları haqqında xatirələrindən ibarət kitab buraxılıb. Bundan əlavə, şanlı Azərbaycan Ordusuna sonsuz hörmətin təcəssümü kimi Qələbə günü münasibətilə müharibə veteranı statusuna malik olan bütün vətəndaşlarımızın istifadəsinə "Veteran tarifi" təqdim olunub.


**Azercell abunəçilərinin nəzərinə**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 24.11.2021-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Binəqədi rayon 25 saylı şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova və kollektivi Binəqədi Tibb Mərkəzi PHŞ-nin direktoru Əsədulla Sultanova qardaşı

**BƏHRAM SULTANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər agentliyinin rəhbərliyi və kollektivi Agentliyin 23 saylı filialının aparıcı mütəxəssisi

**ABDULLA ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2308
Qiymәti 40 qәpik